DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (320) / MART 2018-Cİ İL

İki aydan sonra biz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyini qeyd edəcəyik. Biz fərəhlənirik ki, müsəlman dünyasında ilk demokratik respublikanın baniləri məhz azərbaycanlılar olublar. Müsəlman aləmində ilk dəfə azərbaycanlılar azad, insanların bütün hüquqlarının qorunduğu cəmiyyətdə yaşamaq arzusunu ifadə ediblər. Bugünkü Azərbaycanın inkişafında Azərbaycan Xalq Cümhuriyyətinin rolu olduqca böyük olmuşdur. Eyni zamanda, biz bu gün onların 100 il bundan əvvəl qəbul etdiyi qərarlarla da fəxr edirik. Onlardan biri qadınlara səsvermə hüququnun verilməsi olub ki, o qərar bir çox Avropa dövlətlərindən öncə qəbul edilib. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü iki ildən bir az qısa olub və respublikanın faciəvi süqutu hamımız üçün dərs olub.

Həqiqi müstəqilliyin qorunub saxlanılması onu əldə etməkdən çox çətindir. Bugünkü Azərbaycan tam mənada müstəqil dövlətdir. O dövlət ki, gələcəklə bağlı aydın baxışa malikdir. Hesab edirəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları müasir Azərbaycanın inkişafının şahidi ola bilsəydilər, bizimlə fəxr edərdilər. Biz isə onlarla fəxr edirik və həm özümüzə, həm də dünyaya nümayiş etdiririk ki, insanlar yalnız müstəqillik dövründə, öz taleyinin sahibi olanda uğura nail olurlar. Bu gün Azərbaycan bunun bariz nümunəsidir.

***Prezident İlham Əliyevin "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumundakı nitqindən***

*15 mart, 2018-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA İRAN PREZİDENTİNİN QADIN VƏ AİLƏ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ İLƏ GÖRÜŞÜB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 28-də İran İslam Respublikası Prezidentinin qadın və ailə məsələləri üzrə müavini Məsumə İbtikar ilə görüşüb.

İran İslam Respublikasının nümayəndə heyətini ölkəmizdə görməkdən məmnunluğunu bildirən Birinci vitse-prezident Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin tarixən dostluğa və qardaşlığa əsaslandığını bildirib, bu əlaqələrin bir çox sahələri, o cümlədən siyasi və mədəniyyət sahələrini əhatə etdiyini vurğulayıb.

Mehriban Əliyeva Azərbaycanın və İranın dövlət başçıları arasında keçirilən görüşlərin ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə xidmət etdiyini bildirib. "Son illər Azərbaycan ilə İran həm ölkələrimiz, həm də region üçün vacib olan birgə layihələr həyata keçirirlər", - deyən Birinci vitse-prezident nəqliyyat sahəsindəki əlaqələri xüsusi qeyd etdi və bu gün İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Bakıya səfəri çərçivəsində iki ölkə arasında Rəşt-Astara dəmir yolu ilə bağlı imzalanacaq layihənin həm Azərbaycana, həm də İrana fayda verəcəyini bildirib.

İran Prezidentinin qadın və ailə məsələləri üzrə müavini Məsumə İbtikar ölkəmizə səfərindən məmnunluğunu bildirib, Azərbaycan ilə İran arasında münasibətlərin, bütün sahələrdə qurulan əlaqələrin güclənməkdə olduğunu dedi və bu əlaqələrin iki xalqın rifahına xidmət etdiyini vurğulayıb. Qonaq iki ölkə arasında iqtisadi sahədə əlaqələrdən danışaraq xüsusilə nəqliyyat sahəsində böyük layihələrin həyata keçirildiyini qeyd edib. Bildirib ki, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsi böyük önəm daşıyır. Qonaq ailə və qadın məsələləri sahəsində də əlaqələrin genişlənməkdə olduğunu diqqətə çatdırıb. Məsumə İbtikar Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ictimai və sosial sahədə həyata keçirdiyi layihələri qeyd edərək, bu layihələrin uğurla icra olunduğunu vurğulayıb.

**"AZƏRBAYCANIN MULTİKULTURAL MÜHİTİNƏ TƏHDİDLƏR: ERMƏNİ VANDALİZMİ VƏ SOYQIRIMI SİYASƏTİ – SON 100 İL"**



Səh. 3

**İSTANBULDA 8-Cİ DÜNYA İSLAM FORUMU KEÇİRİLİB**



Səh. 5

**UNUTMADIQ... UNUTMARIQ!**




Səh. 10

# PREZİDENT İLHAM ƏLİYEV BƏRDƏ TÜRBƏSİNDƏ VƏ TORPAQQALA KOMPLEKSİNDƏ ƏSASLI YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

Martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Bərdə türbəsində və Torpaqqala kompleksində yaradılan şəraitlə tanış olub.



Azərbaycandakı tarixi-dini abidələr ölkəmizin tarixinin zənginliyini sübut edir. Belə abidələrdən biri də Bərdə rayonundakı Bərdə türbəsi və Torpaqqala kompleksidir. Bu məkanın əsaslı şəkildə yenidən qurulması Azərbaycan dövlətinin mədəni irsimizə qayğıkeş münasibətinin bariz nümunəsidir. Tarixi kompleksin əsaslı yenidən qurulması, ilk növbədə, zəngin mədəni irsimizin qorunması, inkişafı və bərpası istiqamətində atılan addımların ardıcıl olduğunu göstərir. Bu layihənin icrası, eyni zamanda, bölgələrimizin qədimliyini, tarixi, dini, mədəni abidələrlə zənginliyini dünyaya çatdırmaq baxımından da böyük əhəmiyyət daşıyır, turistləri ölkəmizə cəlb etmək nöqteyi-nəzərindən mühüm rol oynayır. Bərdədə bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, Azərbaycanda tarixi, dini, mədəni abidələrin qorunub saxlanılaraq, gənc nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər ölkəmizin bütün bölgələrini əhatə edir və bu prosesdə İslam abidələrinin, onun müqəddəs dəyərlərinin mühafizəsi xüsusi əhəmiyyət daşıyır.

Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov Prezident İlham Əliyevə məlumat verdi ki, Bərdə türbəsi 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndəsi Əhməd ibn Əyyub əl-Hafiz tərəfindən tikilib. Türbə eramızdan əvvəl inşa olunan Torpaqqala adlı müdafiə divarlarının ərazisində yerləşir. Qülləvarı quruluşa malik türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Yeraltı hissəni o dövrdə xarakterik olan dəfn üçün ayrılmış sərdabə təşkil edir. Yerüstü qat isə xatirə abidəsidir və monumental xarakter daşıyır. Türbə xarici fasad üzrə kürsüdən, gövdə və günbəzdən ibarətdir. Hündürlüyü 13 metr olan türbənin bayır tərəfdən diametri 10 metrdir. Kürsüdən başlayaraq yuxarıdakı haşiyəyə qədər hissəni örtən və firuzəyi kaşı ilə qırmızı kərpicin əlaqələndirilməsindən yaranan bir kompozisiyadan əmələ gələn kitabədə "Allah" sözü mütənasib surətdə təkrarlanır. Məhz bu səbəbdən abidəyə el arasında "Allah-Allah" türbəsi də deyilir.

Abidənin kimin şərəfinə tikildiyi məlum deyil. Ehtimal olunur ki, Elxanilər sülaləsindən olan bir şəxs üçün inşa edilib.

Bildirilib ki, uzun illər baxımsız vəziyyətdə olan türbənin bərpasına ötən əsrin 60-cı illərində başlanılıb. Lakin səhv aparılan bərpa işləri nəticəsində türbənin görkəmi dəyişib, kitabələr silinib, üzərinə qoyulan ağır beton konstruksiya isə çatların əmələ gəlməsinə səbəb olub. Türbənin və əhatəsində olduğu Torpaqqala divarlarının bərpasına 2012-ci ildə başlanıb və hazırda tam başa çatdırılıb. Türbənin betondan quraşdırılmış qəzalı günbəzi tam sökülərək yenidən hörülüb və kaşılı kərpiclə üzlənib. Burada 427 kvadratmetr sadə və mürəkkəb formalı kaşı elementləri hazırlanaraq tətbiq edilib. Quranın "Ayətül-Kürsü" ayəsi və kufi əlifbası ilə kitabələr bərpa olunub, kaşılararası hörgü tikişləri təmizlənərək xüsusi məhlul qarışığı ilə yenidən doldurulub, divarlardakı çatlar tam regenerasiya edilib. Sərdabənin pilləkəni şüşə örtüklə bağlanıb və burada mərmər sənduqə quraşdırılıb.

Türbənin yerləşdiyi iki hektar ərazini əhatə edən Torpaqqala divarları da bərpa olunub. Bərpa işləri Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sifarişi ilə "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən həyata keçirilib.

Türbə ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirilib.

## Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyəti ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət-din münasibətləri sahəsində fəaliyyətin tənzimlənməsi, mövcud dini konfessiyaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun qarşısında başlıca vəzifə kimi müəyyənləşdirilmişdir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətinin təşkili məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən Mənəvi Dəyərlərin Təbliği Fonduna 6100,0 min (altı milyon yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 mart 2018-ci il.

## Roma Papası Fransisk Həzrətlərinə

Zati-müqəddəsləri,

Tacqoyma Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Son dövrdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər yeni mərhələyə qədəm qoymuşdur. Həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlər sivilizasiyalar və dinlər arasında dialoqun və tolerantlığın təşviqinə töhfədir.

Ümidvaram ki, ümumbəşəri dəyərlərin təntənəsinə, dünyada sülhün, sabitliyin qorunub saxlanmasına, insanlar arasında qarşılıqlı anlaşma, dəstək və həmrəyliyin bərqərar olmasına yönəlmiş səmimi dialoqumuzu bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xeyirxah və müqəddəs missiyanızda uğurlar diləyirəm.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 mart 2018-ci il.

# "ERMƏNİ TERRORU AZƏRBAYCAN MULTİKULTURALİZMİNƏ QARŞI: 1918-2018"



Martın 27-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) "Erməni terroru Azərbaycan multikulturalizminə qarşı: 1918-2018" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbir BBMM tərəfindən "Terror multikulturalizmə qarşı" layihəsi çərçivəsində Azərbaycan Dillər Universiteti ilə birgə reallaşdırılıb.

BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov konfransı açaraq erməni terrorizmi və onun ağır fəsadlarından danışıb. Bildirib ki, 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və erməni-daşnak dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Prezident İlham Əliyevin 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncamı faciəyə verilən layiqli qiymətdir.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov erməni terrorizminin təkcə azərbaycanlılar üçün deyil, digər qonşu xalqlar üçün də tarixən ciddi problemlər yaratdığını deyib. Bildirib ki, ermənilər terrordan ən çox istifadə edən xalqlardandır. Elə buna görə də "erməni terroru" ifadəsi siyasi leksikona daxil edilib. Bir çox erməni siyasi partiyaları terroru öz fəaliyyətlərinin əsas metodu kimi qəbul ediblər. Hazırda bu ənənə Ermənistanda qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı törədilən terror aktlarında, digər cinayətlərdə bu gün Ermənistanda siyasi hakimiyyətdə olanlar bilavasitə iştirak ediblər. Müasir dövrdə terror Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılıb. Bütün dünyada terrorçu kimi tanınan ermənilərə heykəl qoyulur, adlarına küçələr verilir. Erməni terroru istər keçmişdə, istərsə də müasir dövrdə sülhə, təhlükəsizliyə böyük təhdiddir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı erməni vəhşiliklərini tarixi faktlarla diqqətə çatdırıb. O deyib ki, mart soyqırımı yalnız azərbaycanlılara deyil, digər xalqlara qarşı da törədilib. Erməni təşkilatlarının məqsədi "böyük Ermənistan" yaratmaq olub. Bunun üçün onlar hər cür terrora, vəhşiliklərə əl atıblar. Bu proses bu gün də davam edir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, işçi qrupun rəhbəri İsmayıl Axundov təmsil etdiyi qurumun erməni terrorizminin araşdırılması ilə bağlı gördüyü işlərdən danışıb. Bildirib ki, o dövrdəki gərgin siyasi vəziyyətdən istifadə edən ermənilər təşkilatlanmış, bölgənin türk-müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirmişlər. Ermənilər 1988-ci ildən etibarən yenidən Azərbaycana qarşı ərazi iddialarına başladılar. Ermənistanın bu siyasəti nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizi işğal edildi, bir milyondan artıq soydaşımız yurd-yuvalarından didərgin düşdü.

Konfrans panel müzakirələrlə davam edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Solmaz Rüstəmova-Tohidinin moderatorluğu ilə keçən "1918-1920-ci illərdə azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımı" adlı birinci panel iclasda Fransa Sosial Tarix Araşdırmaları Mərkəzinin nümayəndəsi Georgi Mamulia, Mazandaran Universitetinin siyasi elmlər üzrə doktoru Əhməd Raşidi, Prezidentin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin nümayəndəsi Həcər Verdiyeva, rusiyalı tarixçi, tanınmış qafqazşünas alim Oleq Kuznetsov, Prezident Kitabxanasının şöbə müdiri Nazim Mustafa, İnquşetiya Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri Boris Xarsiyev və BBMM-in müşaviri Aytən Qəhrəman məruzələrlə çıxış ediblər.

Prezidentin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin nümayəndəsi Həcər Verdiyevanın moderatorluğu ilə təşkil edilən "Azərbaycanda yaşayan etnik qruplara qarşı erməni terroru" adlı ikinci panel iclasda isə Moldovanın Effektiv Siyasət İnstitutunun direktor müavini Ruslan Şevçenkonun, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri Firdovsiyyə Əhmədovanın, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin nümayəndəsi Araz Qurbanovun, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri İmamverdi Həmidovun, "Samur" qəzeti redaktorunun müavini Müzəffər Məlikməmmədovun, Atatürk Universitetinin müəllimi Yavuz Aslanın və AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun sektor müdiri Təvəkkül Əliyevin məruzələri dinlənilib.

# "AZƏRBAYCANIN MULTİKULTURAL MÜHİTİNƏ TƏHDİDLƏR: ERMƏNİ VANDALİZMİ VƏ SOYQIRIMI SİYASƏTİ – SON 100 İL" ADLI KONFRANS KEÇİRİLİB




Martın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycanın multikultural mühitinə təhdidlər: erməni vandalizmi və soyqırımı siyasəti – son 100 il" adlı konfrans keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı, millət vəkili Elman Nəsirov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri Rəşad İlyasov, DQİDK və AMEA-nın məsul şəxsləri, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransın açılışında ermənilərin törətdikləri soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tədbirin "1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə dair" Tədbirlər Planına uyğun olaraq baş tutduğunu diqqətə çatdırıb. Bu cür konfransların keçirilməsinin soyqırımı törədənlərin ifşa olunması və ictimaiyyətin geniş məlumatlandırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Dövlət Komitəsinin sədri Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra ermənilərin Azərbaycan dövlətinə və xalqına qarşı işğalçılıq və soyqırımı cinayətlərini araşdırmağın, əsl həqiqətləri dünyaya bəyan etməyin mümkün olduğunu bildirib. O, 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı Fərman ilə erməni millətçilərinin cinayətkar əməllərinə hüquqi-siyasi qiymət verildiyini deyib. Mübariz Qurbanlı son illər erməni yalanlarının dünyada ifşa olunması istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi fəaliyyətin daha da genişləndiyini, ermənilərə qarşı ideoloji mübarizənin aparıldığını qeyd edib.

Tarixin müxtəlif dövrlərində xalqımıza qarşı törədilən soyqırımı faktları barədə danışan AMEA Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov ermənilərin məkrli siyasətinin ifşa olunmasında Ümummilli Lider Heydər Əliyevin xüsusi rolunun olduğunu bildirib. Y.Mahmudov Ulu Öndər Heydər Əliyevin son 200 ilin tarixinin yenidən araşdırılması barədə verdiyi göstəriş əsasında Tarix İnstitutunun əməkdaşları tərəfindən dünyanın müxtəlif ölkələrinin arxivlərində aparılan araşdırmaların nəticəsində XX əsrin əvvəllərindən başlayaraq ermənilər tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə siyasəti, azərbaycanlıların erməni silahlı dəstələri tərəfindən qətliamlara məruz qalması, dini və tarixi abidələrin, məktəblərin, məscidlərin və qəbiristanlıqların dağıdılması faktlarının sənədlərlə sübuta yetirildiyini deyib. O, bu barədə faktları özündə əks etdirən, müxtəlif dillərdə kitab və broşürlərin çap edilərək yayıldığını diqqətə çatdırıb. Bu istiqamətdə qarşımızda duran əsas vəzifələrin xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmağın, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmağın vacibliyini vurğulayıb.

Milli Məclisin deputatı, professor Elman Nəsirov azərbaycanlıların soyqırımı gününün tariximizə XX əsrin qanlı hadisəsi kimi yazıldığını qeyd edib. Bildirib ki, soyqırımı zamanı mütəşəkkil erməni birləşmələri tərəfindən on minlərlə günahsız soydaşımız amansızlıqla qətlə yetirilib. Tarixboyu təcavüzkar siyasət yeridən, qanlı əməllərindən əl çəkməyən ermənilər havadarlarının köməyi ilə əzəli torpaqlarımızı işğal etməyi özlərinin məqsədlərinə çeviriblər. Azərbaycan dövlətinin gördüyü işlər nəticəsində bu gün artıq dünya dövlətləri və beynəlxalq təşkilatlar ölkəmizin haqq işini müdafiə edir və getdikcə daha çox ölkə Ermənistanı işğalçı dövlət kimi tanıyır.

Konfransda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı bildirib ki, ölkəmizin ərazisində yaşayan, multikultural mühitin tərkib hissəsi olan etnoslar da soyqırıma məruz qalıb. Q.Cavadlı son bir əsr ərzində azərbaycanlıların bir neçə dəfə ermənilər tərəfindən soyqırıma məruz qalmasının bu xalqın çirkin niyyətlərinin sübu-

Davamı səh. 4

# "AZƏRBAYCANIN MULTİKULTURAL MÜHİTİNƏ TƏHDİDLƏR: ERMƏNİ VANDALİZMİ VƏ SOYQIRIMI SİYASƏTİ – SON 100 İL" ADLI KONFRANS KEÇİRİLİB

Əvvəli səh. 3

tu adlandırıb. Qeyd edib ki, dövlət səviyyəsində soyqırıma həsr olunmuş tədbirlərin keçirilməsi gələcək hədəflərimizi müəyyənləşdirmək baxımından çox böyük əhəmiyyət daşıyır.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov vurğulayıb ki, Azərbaycan xalqına qarşı törədilən soyqırımları erməni şovinizminin əsl mahiyyətini bir daha üzə çıxarıb. K.Pominov qeyd edib ki, ermənilərin torpaq əldə etmək üçün Azərbaycan xalqının başına gətirdiyi müsibətlər dünyaya bəyan edilməli, bu vandalizm cəzasız qalmamalıdır.



Daha sonra Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri Rəşad İlyasov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının nümayəndəsi Vladimir Baksa, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski çıxış ediblər.

Diqqətə çatdırılıb ki, 1918-ci il martın 31-də törədilmiş qətliamlar Azərbaycan xalqının qan yaddaşında ən faciəli hadisələrdən biri kimi qalıb. Ermənilər tərəfindən azərbaycanlıların kütləvi şəkildə qətl edilməsi, etnik təmizləmə siyasəti XX əsrin sonlarında da davam edib. Ermənilərin törətdiyi cinayətlər bütün dünya tarixi üçün silinməz ləkədir və erməni vandalizmi cəzasız qalmamalıdır. Hazırda müstəqil Azərbaycan dövlətinin yürütdüyü xarici siyasət ermənilərin "Böyük Ermənistan" xülyasını darmadağın edir.

Sonra AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi katibi İradə Əliyeva, İnstitutun "Qarabağ tarixi" şöbəsinin müdiri Gültəkin Nəcəfli, "Azərbaycanın sovet tarixi" şöbəsinin müdiri İlqar Niftəliyev özündə tarixi faktları əks etdirən təqdimatlarla çıxış ediblər.

Qeyd edək ki, konfrans çərçivəsində ermənilərin işğalçılıq və etnik təmizləmə siyasəti, azərbaycanlılara qarşı soyqırımı barədə kitablar sərgilənib.

# GƏNCƏDƏ "AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: ƏSAS İSTİQAMƏTLƏR" MÖVZUSUNDA KONFRANS BAŞ TUTUB



Martın 14-də Gəncədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın və şəhər icra hakimiyyətinin məsul işçiləri, Milli Məclisin deputatı Naqif Həmzəyev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə üzrə səlahiyyətli nümayəndəsi, Gəncə Şəhər İcra Hakimiyyəti (ŞİH) başçısı yanında Dini işlər üzrə Komissiyanın üzvləri, dini icma sədrləri, din xadimləri, gənclər və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

Konfransı açan DQİDK-nın sədri Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. O, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

M.Qurbanlı qeyd edib ki, bu gün dünyada din pərdəsi altında insanlar arasında təfriqə salmaqla xaos yaratmaq xoşagəlməz reallığa çevrilib. Radikal dini təşkilat yaratmaq və yaxud onlara maddi-texniki dəstək verməklə öz məkirli niyyətlərini həyata keçirməyə çalışanlar müsəlman dünyasında qarşıdurmanı dərinləşdirməyə, İslam dünyasını zəiflətməyə və yekun nəticədə coğrafi baxımdan böyük strateji əhəmiyyət daşıyan ərazilərdə hegemonluğa cəhd göstərirlər. Ona görə də bu gün müsəlman ölkələrində din amilindən istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar arayıb tapmağa hər zamankından daha çox ehtiyac var. Bu yol isə dini tolerantlığın, birgəyaşayışın, multikultural dəyərlərin, eyni zamanda, müsəlmanlar arasında həmrəylik ideyasının təbliğ və təşviq olunmasından keçir.

Komitə sədri çıxışında istər qeyri-səmavi, istərsə də səmavi dinlərin keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, dinlərin daxilindəki məzhəb və təriqət ayrılıqlarını, eləcə də ayrı-ayrı dinlər arasındakı mövcud münasibətləri şərh edib.

İştirakçılara İslam tarixi və coğrafiyası haqqında maraqlı məlumatlar verilib. Eyni zamanda, bu gün İslam aləmində baş verən siyasi proseslər, böyük siyasi-ideoloji və hərbi güc mərkəzləri tərəfindən İslam ölkələrində yaradılmış süni münaqişələr, bu cür hadisələrin bu dinə mənsub xalqların tarixi irsinə, maddi-mədəni və mənəvi dəyərlərinə, eləcə də müasir inkişafına vurmuş olduğu böyük ziyanlar konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

"Ölkəmizdə yaşayan hər bir vətəndaşın etiqad azadlığı Azərbaycan Respublikasının ali hüquqi sənədi olan Konstitusiyada təsbit edilib. Din dövlətdən ayrı olsa da, dövlət-din münasibətləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalarla və ölkəmizin mövcud qanunvericiliyi ilə tənzimlənir. Bununla yanaşı, Azərbaycan dövləti və Prezident İlham Əliyev İslam dininə, eləcə də ölkəmizdə tarixən mövcud olan bir çox dinlərə, həmin dinlərlə bağlı müqəddəs məkanlara tarixi, maddi-mədəni irsin bir hissəsi kimi yanaşır və bu cür yerlərin təmir edilməsinə, mənəvi dəyərlərin isə geniş təbliğinə daim dəstək verir" – deyə M.Qurbanlı qeyd edib.

QMİ-nin Gəncəbasar üzrə səlahiyyətli nümayəndəsi Tahir Abbasov öz çıxışında regionlarda keçirilən bu cür konfransların məqsədinin Azərbaycanın müxtəlif bölgələrində cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasından, dini mühitdə radikallığa meylin səbəbinin öyrənilməsi, dəyərləndirilməsi və onun qarşısının alınması üçün səmərəli metodların aşkara çıxarılmasından, bu sahədəki kompleks tədbirlərin səmərəliliyinin daha da artırılmasından ibarət olduğunu vurğulayıb.

Bildirilib ki, son illərdə respublikamızın bütün bölgələri kimi, Gəncə şəhəri də hər bir sahədə özünün müasir inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin bu şəhərə diqqət və qayğısı nəticəsində Gəncənin bütün dini-tarixi memarlıq abidələri əsaslı şəkildə yenidən qurulub.

Sonda iştirakçılara Dövlət Komitəsi tərəfindən çap olunan kitablar paylanılıb.

Konfransın ikinci hissəsi "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam edib.

Orta məktəb direktorlarının təlim-tərbiyə üzrə müavinlərinin, ümumtəhsil məktəblərində çalışan psixoloq və "Həyat bilgisi" fənnini tədris edən müəllimlərin iştirak etdiyi tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Komitənin Dini qurumlarla iş üzrə şöbəsinin əməkdaşı Əli Həziyev, Gəncə ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Ayxan Babayev çıxış ediblər.

Dövlət Komitəsinin sədr müavini radikalizmə qarşı mübarizədə dini maarifləndirmənin önəminə toxunub. Vurğulayıb ki, radikal qrupların zərərli ideyalarının yayılması cəhdlərinin qarşısının alınmasında gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliği mühüm rola malikdir. Bu məqsədlə gənclər arasında dini savadlılığın artırılması istiqamətində tədbirlər görülür.

Digər çıxışlarda ölkəmizdə radikalizm ideyalarının yayılmasının qarşının alınması, dinlə, milli-mənəvi dəyərlərimizlə bağlı düzgün maarifləndirmə işinin aparılması və təbliğ edilməsi barədə müzakirələr aparılıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MİSİRİN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞÜB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı martın 16-da Misirin Azərbaycana yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim ilə görüşüb.

Görüşdə yeni təyinatı münasibətilə səfiri təbrik edən Dövlət Komitəsinin sədri iki ölkə arasındakı dostluq münasibətlərinə toxunub. Misirin hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyini dəstəklədiyini vurğulayıb. O, eyni zamanda, Azərbaycan və Misir arasındakı din və mədəniyyət sahəsindəki əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Söhbət zamanı ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri barədə səfiri məlumatlandıran Mübariz Qurbanlı dinə dövlət qayğısından bəhs edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev siyasi kursunun davamçısı Prezident cənab İlham Əliyev milli-mənəvi dəyərlərin qorunmasına, dini ibadətgahların inşasına və bərpasına xüsusi önəm verir. Eyni zamanda, mütəmadi olaraq, müsəlman və qeyri-müsəlman dini icmalarına dövlət büdcəsindən maliyyə yardımı ayrılır. DQİDK sədri qeyd edib ki, Azərbaycan müxtəlif dinlər, mədəniyyətlərarası qarşılıqlı anlaşmaya xüsusi diqqət ayırır. Azərbaycan Prezidentinin 2016-cı ili ölkədə "Multikulturalizm ili", onun məntiqi davamı olaraq ötən ili "İslam Həmrəyliyi İli" elan etməsi buna ən yaxşı nümunədir.

Adel İbrahim Ahmed İbrahim səfir kimi qısa müddətdir ki, fəaliyyətə başlamasına baxmayaraq, ölkəmizdəki inkişafın, sabitliyin, dini dözümlülüyün yüksək səviyyədə olmasının əyani şahidi olduğunu deyib. Azərbaycanla Misir arasında ikitərəfli əlaqələrə toxunan diplomat iki ölkənin müvafiq qurumları arasında qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini vurğulayıb. Ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafı üçün səylərini əsirgəməyəcəyini söyləyib.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda səfirə Dövlət Komitəsinin ərəb dilində nəşr etdirdiyi, işğal altındakı maddi-mənəvi irsimizin məhv edilməsi faktlarının əks olunduğu "İşğal altındakı tarixi-dini abidələrimiz" kitabı təqdim edilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ VƏTƏNDAŞLARI QƏBUL EDİB

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, martın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Gəncə şəhərində bölgə vətəndaşlarını qəbul edib.

Qəbuldan əvvəl DQİDK sədri Mübariz Qurbanlı və Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Rafiq Şəfiyev Ümummilli Lider Heydər Əliyevin şəhərin baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Azərbaycan Dövlət Aqrar Universitetinin əsas binasında keçirilən qəbulda Mübariz Qurbanlı Gəncə, Naftalan şəhərlərinin, Daşkəsən, Göygöl, Goranboy, Samux rayonlarının sakinlərinin müraciətlərinə baxıb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.




# İSTANBULDA 8-Cİ DÜNYA İSLAM FORUMU KEÇİRİLİB

Türkiyənin İstanbul şəhərində Dünya İslam Forumu beynəlxalq təşkilatı və Türk Asiya Strateji Araşdırmalar Mərkəzinin (TASAM) birgə təşkilatçılığı ilə 1-3 mart tarixlərində 8-ci Dünya İslam Forumu keçirilib.

Müxtəlif ölkələrdən olan dövlət və hökumət nümayəndələrinin iştirak etdiyi Forumda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı məruzə ilə çıxış edib. O, öz çıxışında bildirib ki, xalqımızın milli-mənəvi dəyərlər sisteminin mühüm hissəsini təşkil edən ənənəvi İslam dəyərləri onun milli kimliyinin formalaşmasında mühüm rol oynayıb və mənəviyyatımızı zənginləşdirib. Bu dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindəndir. Sədrin birinci müavini vurğulayıb ki, ümumbəşəri ideyalarla səsləşən İslam dini ilə bağlı dəyərlərin, eyni zamanda, ölkədə bərqərar edilən milli və dini tolerantlıq mühitinin qorunması və inkişafı dövlətimizin qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Ötən ilin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan olunduğunu forum iştirakçılarının diqqətinə çatdıran Səyyad Salahlı bu çağırışın bəşəri dəyərlərə xidmət etdiyini söyləyib.




Vurğulayıb ki, dünyada milli və dini zəmində münaqişələrin gücləndiyi bir zamanda Azərbaycanın irəli sürdüyü İslam həmrəyliyi ideyası münaqişə ocaqlarının qarşısını almağa, bəşəriyyəti sülh və barışa çağıran mütərəqqi təşəbbüsdür. Sədrin birinci müavini sivilizasiyalararası dialoqa böyük töhfələr verən Azərbaycanın İslam həmrəyliyinin ideya mərkəzinə çevrildiyini qeyd edib.

Çıxışında Azərbaycan həqiqətlərinə də toxunan S.Salahlı Azərbaycanın tarixi, əzəli torpağı olan Dağlıq Qarabağ və yeddi ətraf rayonunun erməni silahlı qüvvələrinin işğalı altında olduğunu deyib. Diqqətə çatdırıb ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul edilib. Ancaq Ermənistan tərəfi bu qətnamələrə məhəl qoymayaraq işğal etdiyi torpaqlarımızda məscidlərimizi, tarixi-mədəni irsimizi dağıdıb. Xüsusilə işğal olunmuş ərazilərdə dini abidələr təhqir obyektinə çevrilib. Ümumiyyətlə, erməni təcavüzkarlarının vurduqları ziyanı dəqiq hesablamaq mümkün deyildir, çünki talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də bütün dünya sivilizasiyasının, o cümlədən də müsəlman aləminin misilsiz mədəniyyət nümunələridir.

Qeyd edək ki, "Nəzəriyyə və Təcrübədə İnteqrasiya və Mənəvi hakimiyyət" mövzusuna həsr edilmiş 8-ci Dünya İslam Forumu çərçivəsində "Dünya Müsəlman Qadınlarının Sammiti və Sərgisi", "Dünya Müsəlmanlarının Gənclər Sammiti və Sərgisi", "3-cü İslam Dünyası İstanbul Mükafatı"nın təqdimat mərasimi və "9-cu Dünya İslam Forumunun Yüksək Səviyyəli Şəxslərinin Qrup Görüşü" də keçirilib.

# Qafqaz Müsəlmanları İdarəsində 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirilib

## *Azərbaycandakı dini konfessiya rəhbərləri dünya dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara müraciət ünvanlayıb*

Martın 28-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyinə həsr olunan tədbir keçirilib. Əvvəlcə müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.

QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə 31 mart soyqırımının tariximizin ən qanlı səhifələrindən biri olduğunu deyib. Bildirib ki, 1918-ci il martın 30-dan aprelin 3-dək Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və Daşnakstyundan olan erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Azərbaycan xalqı 200 ildir ki, qonşuluq münasibətində olduğu ermənilərdən hər zaman əziyyət görüb. Hələ keçmiş zamanlardan "böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər zaman-zaman qonşularına qarşı çirkin işğalçılıq siyasəti aparıblar. Bu siyasətin bariz nümunəsi kimi əsrin əvvəllərində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımını göstərmək olar. Bununla kifayətlənməyən ermənilər əsrin sonlarında da xalqımıza qarşı Xocalı faciəsi kimi bir dəhşəti yaşatdılar. Ermənilərin günahsız insanlara qarşı törətdikləri vəhşiliklər heç vaxt yaddan çıxmayacaq.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilmiş vəhşiliklərin tarixi çox əvvələ gedib çıxır. Lakin Azərbaycan müstəqillik əldə edəndən sonra həqiqətləri üzə çıxara bildi. Həqiqətlər mütəmadi olaraq dünya ictimaiyyətinə çatdırılmasa, baş verənlər unudulub gedər. Bu istiqamətdə xeyli işlər görülüb. Ermənilərin törətdiyi vəhşilikləri bir çox dillərdə dünyaya çatdırmaq işində gənclərin üzərinə böyük iş düşür. Bir çox beynəlxalq sənədlərdə Ermənistanın işğalçı dövlət olması öz əksini tapıb. Heç bir ölkə Ermənistanın işğal etdiyi torpaqları onun ərazisi kimi tanımır. Bu da Azərbaycanın uğurudur.

Sonra çıxış edən Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayev, Alban-Udi xristian icmasının sədri Robert Mobili, professor Qəzənfər Paşayev, akademik Vasim Məmmədəliyev və professor Anar İsgəndərov çıxışlarında ermənilərin Azərbaycan torpaqlarında törətdikləri qanlı cinayətlərdən danışıb, bu barədə dünya xalqlarına daha geniş məlumatlar çatdırılmasının vacibliyini vurğulayıblar. Onlar 31 mart soyqırımının həm də bəşəriyyətə qarşı cinayət olduğunu söyləyib, tarixən ermənilərin azərbaycanlılara qarşı törətdikləri təxribatlardan bəhs ediblər.

Sonra soyqırımı nəticəsində həyatlarını itirən insanların ruhuna dualar oxunub.

Daha sonra tədbirdə Azərbaycandakı dini konfessiya rəhbərlərinin 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar dünya dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara ünvanladıqları müraciət oxunub.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandrın, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayevin, Alban-Udi xristian icmasının sədri Robert Mobilinin imzaladıqları müraciətdə deyilir: "Azərbaycan Respublikasının vətəndaşları və milyonlarla dünya azərbaycanlılarının dilək və hisslərini ifadə edərək, müraciətimizi Azərbaycan xalqına qarşı məkrli və ağlasığmaz cinayətlərlə müşayiət olunmuş bəşəri cinayətin - soyqırımının 100 illiyi ərəfəsində bütün dünya ictimaiyyətinin, dini liderlərin, parlamentlərin və beynəlxalq təşkilatların diqqətinə çatdırırıq.

Dünya tarixində milli, irqi, dini mənsubiyyətinə görə törədilmiş soyqırımı faktları bəşəriyyətin qan yaddaşında "qara ləkələr" kimi qalır və insanlığa qarşı ən böyük günahlardan hesab olunur. Belə faciəvi soyqırımı cinayətlərinə məruz qalan xalqlardan biri də Azərbaycan xalqıdır və bu dəhşətli fəlakətlərin mütəmadi xarakter alması bütün Azərbaycan cəmiyyətini, o cümlədən dini ictimaiyyəti daim narahat edir.

Erməni millətçilərinin xalqımıza qarşı iki əsrdən artıq davam edən ardıcıl təcavüz və etnik təmizləmə siyasətinin əsas məqsədi azərbaycanlıları öz əzəli torpaqlarından qovmaq, erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "böyük Ermənistan" dövlətini bu ərazilərdə yaratmaqdır. Tarixi faktlar sübut edir ki, keçən əsrin xəritələrində əksini tapan Azərbaycan əraziləri erməni işğalı və yerli əhalinin zorla çıxarılması nəticəsində xeyli azalmış, Qarabağ və ətraf rayonların işğalından sonra isə ərazilərimizin daha 20 faizi zəbt olunmuşdur. Qarabağ və Zəngəzura ermənilərin məqsədli şəkildə kütləvi köçürülməsi nəticəsində etnik vəziyyət süni surətdə və zorla dəyişdirildi. 1905-ci və 1918-ci illərdə erməni ekstremistləri tərəfindən Bakıda, Naxçıvan, Qarabağ, Şamaxı, Lənkəran, Quba qəzalarında və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədildi, on minlərlə dinc insan qətlə yetirildi, yaşayış məntəqələri, tarix və mədəniyyət abidələri, məscidlər, kilsələr və sinaqoqlar dağıdıldı.

Azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti sovet hakimiyyəti dövründə erməni şovinistlərinin və lobbisinin dəstəyi ilə məkrli metodlarla davam etdirildi. Tarixi Azərbaycan ərazisi olan Zəngəzur heç bir əsas olmadan Ermənistana verildi, Dağlıq Qarabağda erməni muxtariyyəti yaradıldı. 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı öz ata-baba yurdlarından deportasiya edildi və faktiki olaraq əzəli Azərbaycan ərazilərində monoetnik Ermənistan Respublikası yaradıldı.

Ötən əsrin 80-ci illərinin ikinci yarısında SSRİ-nin rəhbər dairələrinə erməni lobbisinin təzyiqi və təhriki ilə erməni millətçilərinin xalqımıza qarşı təcavüz və etnik təmizləmə siyasətinin yeni dalğası başlandı. Azərbaycan xalqının görkəmli dövlət xadimi Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından istifadə edən erməni şovinistləri 300 minə yaxın azərbaycanlının Ermənistandan amansızlıqla qovulmasına nail oldular. Ərazilərimizin 20 faizi - Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində işğala məruz qaldı, bir milyondan artıq azərbaycanlı doğma yurdlarından didərgin salındı. Ermənilər qəsb etdikləri Qarabağ torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini, mədəniyyət abidələrimizi, ziyarətgah və qəbiristanlıqlarımızı məhv etdilər. 1992-ci ildə erməni ekstremistlərinin qədim Xocalıda həyata keçirdikləri soyqırımı aktı isə onların törətdikləri vəhşiliklərin kulminasiya nöqtəsi oldu.

Soyqırımı və deportasiya siyasəti xalqımıza ağır maddi və mənəvi zərbələr vurmuş, onun tarixi yaddaşında silinməz izlər buraxıb. Yalnız ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra erməni millətçilərinin illərlə reallaşdırdıqları soyqırımı və deportasiya siyasətinin mahiyyəti dünya ictimaiyyətinə açıqlandı. Prezident Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 martın Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi, soyqırımı qurbanlarını anma tədbirlərinin keçirilməsi beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin daha geniş yayılması ilə səciyyələnib.

Bu gün Azərbaycanın rəsmi və ictimai dairələri Azərbaycan ərazisində erməni ekstremistlərinin törətdikləri etnik təmizləmə və soyqırımı əməllərinə dair təkzibolunmaz faktları beynəlxalq təşkilatların və ictimaiyyətin diqqətinə çatdırmaqdadır. Özlərini soyqırımı qurbanı kimi təqdim edən erməni ekstremistlərinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri gerçək soyqırımı cinayətlərinin layiqincə cavabını verməyənlər və onlara havadarlıq edənlər bilməlidirlər ki, həqiqət gec-tez qalib gələcək, ədalət öz yerini tutacaq.

Layiqli qiymətini almayan qətliamlar yeni-yeni bəşəri cinayətlərə yol açır, dünyanın müxtəlif bölgələrində soyqırımların təkrarlanmasına, miqrant köçkünlər ordusunun fəlakətlərinə zəmin yaradır. Beynəlxalq terrorizmin tüğyan etməsi, həyata keçirilən silsilə terror əməlləri, tarixi və dini abidələrə qarşı vandalizm aktları bu növ bəşəri fəlakətlərə zamanında layiqli hüquqi-siyasi qiymətin verilməməsinin acı fəsadlarıdır.

Biz dövlətlərarası və xalqlararası münasibətlərdə beynəlxalq hüququn qəbul edilmiş prinsiplərinin, sivil birgə yaşayış normalarının tətbiq olunmasının tərəfdarıyıq. Lakin təəssüflər olsun ki, erməni terrorçuları törətdikləri cinayətlərə görə hələ də cəza almayıb, işğal etdikləri Qarabağ və ətraf rayonların ərazilərinin qeyd-şərtsiz və dərhal boşaldılmasına dair Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin tələblərini bu günədək yerinə yetirməyiblər. Azərbaycanın illərdir beynəlxalq təşkilatlara etdiyi müraciətlərə baxmayaraq, Xocalı soyqırımı faktı hələ də lazımi səviyyədə siyasi, hüquqi qiymətini almayıb. Baxmayaraq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı quldurlarının Xocalı şəhərinə qəfil silahlı basqın edərək oranın dinc, silahsız əhalisinə qarşı amansız kütləvi qırğın törətməsi, qocalar, uşaqlar, hamilə qadınlar da daxil olmaqla 613 nəfərin xüsusi qəddarlıqla qətlə yetirilməsi, 150 nəfərin itkin düşməsi, 1275 nəfərin əsir götürülərək ağır işgəncələrə məruz qoyulması, vəhşicəsinə qətlə yetirilmiş dinc sakinlərin meyitləri üzərində ağlasığmaz təhqiramiz hərəkətlər edilməsi mahiyyəti etibarilə Xocalı faciəsini Holokost, Hernika, Xatın soyqırımları kimi insanlığa qarşı törədilmiş cinayətlərlə bir sıraya qoyur.

Müqəddəs kitablarda əksini tapan həqiqət budur ki, Allahın yaratdığı bir insanı qətlə yetirmək bütün bəşəriyyəti qətl etmək qədər ağır cinayətdir.

Biz, din xadimləri, dini konfessiya rəhbərləri bir daha dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət edir, erməni işğalçılarının Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı cinayətlərinə siyasi-hüquq qiymət verməyə çağırırıq. Qoy Uca Yaradan hamımıza doğrunu yanlışdan seçməkdə və ədalətli olmaqda yardımçı olsun! Amin!".

# “DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ”

Martın 13-də Ağdaşda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ağdaş Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili” mövzusunda seminar-müşavirə keçirilib.

Din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Ağdaş RİH başçısının birinci müavini İsmayıl Yusifzadə mövzunun əhəmiyyətindən danışıb. O, dövlət-din münasibətlərinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında vurğulayıb ki, respublikamızda mövcud olan dini tolerantlıq və dövlət-din münasibətləri digər ölkələr üçün nümunədir. S.Salahlı bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Sədrin birinci müavini dini radikalizmin fəsadları barədə də ətraflı məlumat verərək bu cür halların yaranma səbəbləri və təbliğatına qarşı mübarizə yollarından geniş bəhs edib. Natiq bildirib ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq, dini bilgilərin zəif olmasıdır. Ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir. Səyyad Salahlı gənclərin, ziyalıların və din xadimlərinin, bütövlükdə cəmiyyətin dini radikalizmlə mübarizədə fəal olmalarının vacibliyini də vurğulayıb.



Daha sonra çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov dini ekstremizmin ictimai təhlükəsizliyə təsiri barədə danışıb. Ə. Zülfüqarov dini ekstremizmin yayılmasının qarşısının alınması və gənclərə sirayət etməməsi üçün həyata keçirilən dini maarifləndirmənin önəminə diqqət çəkib. Şöbə müdiri radikal dini təbliğata qarşı ənənəvi İslam dininin prinsiplərinin və sağlam ideyalarının təbliğinin əhəmiyyətinə də toxunub.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Əli Məmmədov dinə və dindarlara göstərdiyi qayğıya görə ölkə rəhbərliyinə təşəkkürünü bildirib.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# "VƏTƏNPƏRVƏRLİK RADİKALİZM VƏ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏDƏ EFFEKTİV VASİTƏDİR"

“Dini radikalizm və ekstremizmə qarşı mübarizədə ən effektiv vasitələrdən biri vətənpərvərlik hissinin gücləndirilməsidir. Vətənpərvərlik hissləri yüksək olan şəxslər dini radikalizm və ekstremizmin təsirinə məruz qalmaz”. Bu fikirlər Beyləqan rayonundakı N saylı hərbi hissədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Müdafiə Nazirliyi ilə birgə keçirdiyi tədbirdə səsləndirilib. Tədbir iştirakçıları əvvəlcə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra DQİDK-nın sifarişi ilə çəkilmiş “Şəhadət” sənədli filmi nümayiş olunub.



Hərbi hissənin zabiti Elşad Əbilov çıxışında tədbirin əhəmiyyətini yüksək qiymətləndirib. Gəncləri radikal dini cərəyanların təsiri altına düşməkdən və dini radikalizmdən qorumağın, eyni zamanda, vətənpərvər ruhda tərbiyə olunmalarının vacibliyini qeyd edib. Bildirib ki, Azərbaycan Ordusunda şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəkdir.

DQİDK sədrinin müavini Səyavuş Heydərov “Şəhadət” sənədli filminin süjet xətti haqqında danışıb. Bildirib ki, ekran işində Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizmin və radikalizmin təsirinə məruz qalmış, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs edilir. Filmdə Vətənin müqəddəsliyi və onun müdafiəsinin vacibliyi, şəhidlik zirvəsinin ucalığı təbliğ olunur, digər tərəfdən isə radikalizmin törətdiyi fəsadlar tamaşaçılara təqdim edilir.

“Şəhadət filminə baxarkən Vətən uğrunda şəhid olmuş fədakar, igid, qəhrəman hərbi qulluqçularımız bizi qürurlandırır. Yad dini ideologiyaların təsirinə məruz qalmış, ailələrinə faciələr yaşatmış gəncləri gördükdə isə təəssüf hissi keçiririk. Filmdə hərbçilərimizin fədakarlıqları və qəhrəmanlıqları əsl vətənpərvərlik rəmzidir, gənclərimiz üçün bir nümunədir”, – deyə S.Heydərov vurğulayıb.

Komitə sədrinin müavini qeyd edib ki, radikalizmin və ekstremizmin təsirinə düşməyin başlıca səbəblərindən biri vətənpərvərlik hissinin zəif olmasıdır. Vətənpərvərlik hissi zəif olan insanlar cəmiyyətdə öz yerlərini tuta bilmirlər. Ona görə də gənclər məlumatlandırılmalı, maarifləndirilməli, onlara vətənpərvərlik hissi aşılanmalıdır.

Səyavuş Heydərov həmçinin çıxışında dünyada dini zəmində baş verən münaqişələrdən, Yaxın Şərqdə dini radikalizm və ekstremizmin acınacaqlı nəticələrindən söz açaraq, dinin siyasiləşdirildiyi və ya siyasi oyunlar üçün alət olduğu ölkələrin böyük fəlakətlərlə üzləşdiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu gün münaqişələr nəinki genişlənməkdə, daha da dərinləşməkdədir. Müxtəlif qüvvələr tərəfindən müsəlman dünyasının çökdürülməsi, tənəzzülə uğradılması, İslam ölkələrində qarşıdurma yaradılması üçün iş aparılır.

O, 1990-cı illərin əvvəllərində Azərbaycanda da təhlükəli bir dövr yarandığını, lakin Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində ölkəmizdə daxili sabitliyin qorunub saxlanıldığını, cəmiyyətimizdə birlik və həmrəyliyin möhkəmləndiyini, bütün sahələrdə sabit, ahəngdar inkişafa nail olunduğunu diqqətə çatdırıb və bildirib ki, bu gün Azərbaycandakı dövlət-din münasibətləri modeli, multikulturalizm, tolerantlıq dünyaya bir nümunədir.

Müdafiə Nazirliyinin nümayəndəsi Emin Səfərov isə çıxışında hərbi hissələrdə bu cür tədbirlərin keçirilməsinin vacibliyini qeyd edib və bildirib ki, Müdafiə Nazirliyi və DQİDK tərəfindən bütün hərbi hissələrdə bu səpkidə maarifləndirici tədbirlər davam etdiriləcəkdir.

Hərbi hissəyə Komitə tərəfindən nəşr edilən kitablar hədiyyə olunub.

## Rusiyalı tarixçi-alim: “Ermənilər 1918-ci ildəki qırğınları xüsusi zorakılıqla törədiblər”

"Bakıda 1918-ci ilin mart-aprel aylarında ermənilərin törətdikləri hadisələrə hüquqi qiymət verilməlidir".

"Report" xəbər verir ki, bunu rusiyalı tarixçi-alim Oleq Kuznetsov “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi. Müasir dövrdə soyqırımı, hərbi təcavüz və etnik təmizləmə siyasəti” mövzusunda keçirilən beynəlxalq elmi konfransda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, ermənilərin törətdikləri həmin qırğınlar xüsusi zorakılıqla törədilib.

O.Kuznetsov bildirib ki, bu hadisələrə hüquqi qiymət verilməlidir: "Sual ortaya çıxır ki, 1918-ci il hadisələri hərbi cinayət, yoxsa soyqırımı idi? Bunun bir cavabı var - bu, soyqırımı sayılır. Bu baxımdan Heydər Əliyevin 1998-ci ildə 31 mart soyqırımı günü ilə bağlı imzaladığı fərman haqlı və yerində verilmiş qərar olmaqla yanaşı, hüquqi əsasa malikdir".

Rusiyalı tarixçi-alim əlavə edib ki, azərbaycanlıların soyqırımını tanımaq rusiyalı siyasətçilərin borcudur.

## AZƏRBAYCANDAN HƏCCƏ GEDƏCƏK ZƏVVARLAR ÖDƏNİŞİ HİSSƏ-HİSSƏ EDƏ BİLƏRLƏR

Azərbaycandan bu il Həcc ziyarətinə getmək istəyən zəvvarlara ödənişin ödənmə qaydasında güzəştlər edilir.

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) verilən məlumata görə, zəvvarlar ziyarətə görə ödənişi hissə-hissə edə biləcəklər.

Ödənişin son tarixi 1 may 2018-ci ildir.

Qeyd edək ki, bu il üçün Azərbaycandan Həcc ziyarətinin xərci 4150 dollardır.

Azərbaycana bu il Həcc ziyarəti üçün 2000 kvota ayrılıb, sənəd qəbulu artıq başlayıb.

Azərbaycandan Həcc ziyarətini yalnız QMİ həyata keçirir.

# Sorğu: Seçicilərin böyük əksəriyyəti İlham Əliyevə səs verəcək

Bu il aprelin 11-də keçiriləcək Prezident seçkiləri ilə bağlı ABŞ-ın “AJF&Associates, Inc.” təşkilatı və “Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası” tərəfindən təşkil ediləcək “Exit-poll” öncəsi keçirilmiş sosioloji araşdırmanın nəticələri açıqlanıb.

“Report”un xəbərinə görə, araşdırmanın nəticələrini Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov və “AJF&Associates, Inc.” təşkilatının sədri Corc Birnbaum təqdim edib.

Qeyd olunub ki, sosioloji sorğunun keçirilməsində əsas məqsəd Prezident seçkiləri ərəfəsində əhalinin səsverməyə hazırlığı və onların ölkənin siyasi həyatında iştirak səviyyəsinin, seçkilərlə bağlı ictimai rəyin öyrənilməsi olub. Sorğuya ümumilikdə Azərbaycanın müxtəlif rayonlarından 1500 nəfər respondent cəlb edilib. Bunlardan 63,5% (952 nəfər) böyük şəhərlərdən, 17,6% (264 nəfər) kiçik şəhərlərdən, qalanları isə qəsəbə və kəndlərdən olub. Sorğuda iştirak edənlərin 49,9% (748 nəfəri) qadın, 50,1% (75 nəfəri) kişi olub. Sorğu ölkə əhalisinin yaş statistikası nəzərə alınaraq aparılıb və respondentlərin 30,4 % (456 nəfəri) 18-29 yaş arası (450 nəfəri) – 30% 30-39 yaş arası, 19,5% (292 nəfəri) 40-49 yaş arası, 11,5% (173 nəfəri) 50-59 yaş arası, 5,6% (84 nəfər) 60-69 yaş arası və yalnız 2,9% (44 nəfəri) 70 və daha yuxarı yaşda insanlar olublar.



Əhalinin Prezident seçkiləri ilə bağlı məlumatlılıq səviyyəsinin öyrənilməsi məqsədilə qoyulmuş “Ümumiyyətlə, Azərbaycanda Milli Məclisə Seçkilər və ya prezident seçkilərində Siz necə iştirak edirsiniz?” – sualına verilən cavablar aşağıdakı kimi olub. Respondentlərin böyük əksəriyyəti – 74,0% (1110 nəfər) “həmişə” seçkilərdə iştirak etdiklərini bildiriblər. 10% (150 nəfər) respondent isə 11 aprel 2018-ci il Prezident seçkilərində “ilk dəfə” iştirak edəcəyini bildirib. 12,6% (189 nəfər) respondent seçkilərdə “bəzən”, yaxud “nadir hallarda” iştirak etdiklərini göstəriblər. Anket sorğusunun I blokuna aid olan suallar seçicilərin iqtidar, yaxud müxalifət meylli olma imkanlarını açmağa imkan verir. Belə ki, “Əgər prezident seçkiləri bu gün keçirilsə idi və namizədlər aşağıdakı şəxslər olsaydı, kimə səs verərdiniz?” Sual 8-ə və – “Əgər parlament seçkiləri bu gün keçirilsə idi, hansı partiyanın namizədinə səs verərdiniz?” Sual 9-a alınan cavablar – İlham Əliyev 82,9 % (1244 nəfər) və Yeni Azərbaycan Partiyasının 70,9% (1064 nəfər) respondent tərəfindən, demək olar ki, böyük əksəriyyətlə qeyd edilməsi azərbaycanlıların mövcud hakimiyyətin fəaliyyətindən razı olduqlarını və bu hakimiyyəti dəstəklədiklərini göstərir.

“Hazırkı hökumətin işini necə qiymətləndirirsiniz?” sualına alınmış cavablar “əla” – 28,9 % (433 nəfər), “yaxşı” – 27,1% (406 nəfər), “orta” – 19,9% (299 nəfər) da gəldiyimiz qənaətin düzgün olduğunu sübut edir. Belə ki, bu cavablar hər biri ayrılıqda müsbət cavablardır və ümumiikdə, 75,9% (1138 nəfər) respondentin hazırki hökumətin fəaliyyətini qənaətbəxş qəbul etdiyini deyə bilərik. Sual 10 – “Aşağıdakı fikirlərin doğru olub-olmadığını deyə bilərsinizmi?” – əhalinin müasir hökumətin fəaliyyətinə münasibətinin açıq ifadəsidir. Belə ki, alınan cavablar – “Azərbaycanın iqtisadiyyatı güclüdür” – 62, 5% (937 nəfər), “Azərbaycanda söz azadlığı var” – 65% (975 nəfər), “ölkə rəhbərliyi xalqı terrordan qoruyur” – 63,6% (954 nəfər), “biz bir siyasi liderin rəhbərliyi altında birləşsək, Azərbaycan daha güclü olar” – 62,5% (938 nəfər), “Azərbaycanda insan hüquqları qorunur” – 62% (930 nəfər), “Azərbaycan regionda sabitlik adasıdır” – 63,1% (946 nəfər) əhalinin mövcud iqtidarın hakimiyyətinə olan inamını və dəstəyini əks etdirir. Bu bloka daxil olan “Prezident İlham Əliyevə münasibətlə” bağlı sual 11-ə verilən cavablar seçicilərin siyasi meyli və səsvermənin nəticələri haqqında fikir söyləməyə imkan verir. Belə ki, İlham Əliyevin prezidentlik fəaliyyətinə münasibət olaraq, “iqtisadiyyatı təkmilləşdirir” – 58,7% (881 nəfər), “vətəndaşların qayğısına qalır”, “miqrant böhranının Azərbaycana keçməsinin qarşısını alır” - 61% (915 nəfər), “Azərbaycanı beynəlxalq aləmdə yaxşı təmsil edir” – 75% (1125 nəfər), “Ölkəmizin təhlükəsizliyini qoruyur” – 60,7% (911 nəfər) qeyd edilib.

"Beləliklə, bilavasitə prezident İlham Əliyevin fəaliyyətinə münasibətlə bağlı ictimai rəyin öyrənilməsinə yönəlmiş "exit-poll" öncəsi sorğunun nəticələrinə əsasən deyə bilərik ki, əhali İlham Əliyevin hakimiyyətinə inanır və onun siyasi xəttini dəstəkləyir. Aparılmış sosioloji sorğunun nəticələri göstərdi ki, 11 aprel 2018-ci il Prezident seçkilərinə hazırlıq həm hakimiyyət, həm də əhali səviyyəsində qənaətbəxşdir. Əhali Prezident seçkiləri ilə bağlı məlumatlıdır və bu, dövlət səviyyəsində aparılan təbliğatın müsbət gedişindən xəbər verir. İnanırıq ki, 11 aprel 2018-ci ildə ölkədə Prezident seçkiləri zamanı keçiriləcək "exit-poll" sorğularının nəticələri apardığımız sosioloji sorğunun nəticələri ilə uyğun olacaq", - təşkilatçılar bildiriblər.

## XİN: Mifik və xəstə “böyük Ermənistan” xülyası ilə yaşayan Ermənistan rəhbərliyi natamamlıq kompleksindən əziyyət çəkir



"Ermənistan xarici işlər nazirinin substantiv danışıqlara qarşı xüsusi fobiyası var. 2017-ci ilin payızından etibarən danışıqların predmetli və konkret əsasda aparılması deyəsən Ermənistan xarici işlər nazirini ciddi surətdə narahat edir".

Bunu "Report"a açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

"Çünki Ermənistan hər bir vəchlə qəsdən danışıqların danışıqlar naminə aparılması və danışıqların imitasiya edilməsi siyasətini yürüdür. Bununla, Ermənistan danışıqlar prosesini uzatmaq və Azərbaycan ərazilərinin işğalının davam etdirmək kimi çirkin məqsəd güdür.

Münaqişənin fundamental əsasını təşkil edən işğal faktına son qoyulması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması əvəzinə, Ermənistanın siyasi-hərbi rəhbərliyi qəsdən danışıqlarda diqqəti texniki-köməkçi məsələlərə yönətməyə çalışır",- H.Hacıyev vurğulayıb.

XİN rəsmisi bildirib ki, Ermənistanın bir dövlət olaraq Azərbaycanın əzəli torpaqlarında yaradılması tarixi faktdır: "Ermənistanın siyasi-hərbi rəhbərliyinə XIX əsrin əvvəllərində Çar Rusiyası tərəfindən yalnız Yerevan şəhərində aparılmış əhalinin siyahıyaalma statistikasına nəzər salmağı tövsiyə edərdik.

Hələ də mifik və xəstə “böyük Ermənistan” xülyası ilə yaşayan Ermənistan rəhbərliyi natamamlıq kompleksindən əziyyət çəkərək müxtəlif əfsanələrlə erməni xalqını aldatmaq, qonşu dövlətlərə qarşı ərazi iddiaları irəli sürmək və işğalçılıq siyasəti yürütməklə məşğuldur.

Regionda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün Ermənistan rəhbərliyi Azərbaycan dövlətinə və xalqına qarşı törətdiyi əməllərinə görə məsuliyyətini etiraf etməli, BMT nizamnaməsi, beynəlxalq hüququn norma və prinsiplərinə görə daşıdığı öhdəliklərinə əməl etməli və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, öz qoşunlarını dərhal, tam və qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalıdır".

## PA rəsmisi: "Bakıda yaşayan ermənilərlə heç bir konflikt yoxdur"



"Ermənistandan fərqli olaraq, Bakının mərkəzində erməni kilsəsi fəaliyyət göstərir və dövlət tərəfindən qorunur".

Bunu Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi. Müasir dövrdə soyqırımı, hərbi təcavüz və etnik təmizləmə siyasəti” mövzusunda keçirilən beynəlxalq elmi konfransda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, həmin kilsədə 5000-ə yaxın erməni ədəbiyyatı dövlət tərəfindən qorunub saxlanılır: "Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi tədbirlər və bizim ölkənin siyasəti arasındakı fərqi aşkar şəkildə görürük".

PA rəsmisi əlavə edib ki, Bakıda çox sayda erməni yaşayır və onlarla heç bir konflikt yoxdur: "Qardaş Türkiyədə də çox sayda erməni kilsəsi fəaliyyət göstərir və qorunur".

O, bir daha xatırladıb ki, ermənilərin həyata keçirdiyi soyqırımı zamanı Azərbaycanın bir çox tarixi abidələri, məscidləri dağıdılıb: "1990-cı illərin əvvəllərində proseslər davam edib. Bu bir daha ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımının miqyasını və mahiyyətini açıq şəkildə ifadə etmiş olur. Ermənilər fikirlər səsləndirirlər ki, guya orada bəzi məscidlərimiz fəaliyyətini davam etdirir, lakin biz orada olan məscidlərimizin hansı məqsədlə istifadə olunduğunu bilirik".

# İNDONEZİYANIN "REPUBLİKA" QƏZETİNDƏ AZƏRBAYCANDAKI TOLERANT MÜHİT BARƏDƏ MƏQALƏ DƏRC EDİLİB

"Xoşniyyətli Azərbaycana səfər edin" adlı məqalənin müəllifi ötən ilin dekabrında Bakıda keçirilən "İslam Həmrəyliyi İli-2017: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda iştirak etmiş xanım Anggia Ermarinidir.

A.Ermarini İndoneziyanın ən böyük qeyri-hökumət təşkilatı olan "Nahdatul Ulama"nın "Al Fatayat" adlı qadın təşkilatının rəhbəridir. Bu QHT-nin qadın bölməsi öz sıralarında təqribən 8 milyon üzvü birləşdirir.

Məqalədə xanım Anggia Ermarini İslam həmrəyliyi ilə bağlı Bakıda keçirilmiş beynəlxalq konfransın əhəmiyyətini vurğulamaqla yanaşı, həm də Azərbaycan, onun paytaxtı haqqında təəssüratlarını bölüşür. Qeyd edir ki, konfransda yalnız müsəlman din xadimlərinin deyil, eyni zamanda, digər dini icmaların nümayəndələrinin də iştirakı Azərbaycanın tolerant ölkə olduğunu təsdiqləyir. Müəllif Azərbaycanda şahid olduğu dini tolerantlıq mühitindən və buna dövlətin göstərdiyi dəstəkdən geniş bəhs edir.

Daha sonra müəllif İndoneziyada İslamın yayılmasında böyük rolu olmuş Azərbaycan əsilli dini alim Şeyx Mövlanə Malik İbrahimdən, müasir Azərbaycanda şahidi olduğu böyük inkişafdan, ölkədəki təhlükəsizlik və sabitlik mühitindən söhbət açır.

Məqalədə Bakının mədəni-tarixi abidələri, o cümlədən UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmiş İçərişəhər, Şirvanşahlar sarayı və Qız qalası barədə məlumat verilir.

Müəllif müstəqillik illərində sürətli inkişafa nail olan Azərbaycanda zəngin tarixi abidələrlə yanaşı, modern arxitekturanı özündə əks etdirən müasir tikililərin olmasına da diqqəti çəkir. O, qeyri-adi və gözəl üsluba malik Heydər Əliyev Mərkəzi və Heydər Məscidi kimi yeni tikililərə ziyarətini xüsusi qeyd edir.




# MASALLIDA DİNİ ƏDƏBİYYAT SATIŞI İLƏ BAĞLI REYD KEÇİRİLİB

Martın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsi rayon ərazisində yerləşən dini təyinatlı ədəbiyyatın, habelə mal və məmulatların satışı ilə məşğul olan bir neçə mağazada reyd keçirib. Monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatın və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatın istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsindən ibarət olub.

Masallı şəhərindəki "Köhnə bazar" adlanan ərazidə yerləşən ticarət obyektində Əzizli Pənah Taleh oğluna məxsus mağazada yoxlama zamanı satış üçün xüsusi razılığı olmayan 29 adda dini məzmunlu kitab aşkarlanaraq müsadirə edilib. Aşkarlanmış qanun pozuntusuna görə həmin mağaza sahibi barədə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək araşdırma üçün məhkəməyə göndərilib.

## RUMINIYA PARLAMENTİ MOLDOVA İLƏ BİRLƏŞMƏYƏ DAİR BƏYANNAMƏ QƏBUL EDİB



Rumıniya parlamenti Moldova ilə birləşməyə dair niyyət bəyannaməsi qəbul edib.

Bu sənəd tarixdə "Besarabiya" olaraq, tanınan hazırkı Moldova torpaqlarının Rumıniya ilə birləşməsinin 100-cü ildönümünə həsr olunan anım toplantısında açıqlanıb.

Qeyd olunub ki, bəyannamə bütövləşməyə həsr olunub.

Sənəddə Rumıniya xalqının Moldova ilə birləşməsi arzusu dilə gətirilib: "Ehtimal edilən birləşmə Moldova xalqının iradəsi və qərarı ilə gerçəkləşə bilər. Rumıniya xalqı buna artıq hazırdır".

Bəyannamədə Moldova və Rumıniyanın yenidən birləşməsi səylərinin hüquqi əsası olduğu vurğulanıb.

Rumıniya parlamentində "Rumın xalqı və rumıncanın bütövləşməsi" adı altında keçirilən toplantıya Moldova parlamenti və hökumətinin təmsilçiləri də qatılıb.

Moldova parlamentinin sədri Adrian Candu bildirib ki, ölkəsinin Rumıniyanın dəstəyinə ehtiyacı var: "Avropa ilə bütövləşməyə gedən yolda yolların və körpülərin tikintisi, əməkdaşlıq yalnız Rumıniyanın yardımı ilə mümkündür".

Rumıniya parlamentindəki macar etnik azlığa məxsus Rumıniya Macar Demokratlar Federasiyası adından çıxış edən Zoltan Csaba bu qərarı "ikiüzlülük" adlandırıb: "Rumıniyanın Erdel bölgəsində macarların mədəni və yerli muxtariyyət tələbləri isə sistemli olaraq rədd edilir".

Macar etnik azlığın parlament fraksiyası isə bəyannamənin əleyhinə səs verib.

## Zaxarova: "Diplomatlarımızı çıxaran dövlətlərə qarşı adekvat tədbirlər görüləcək"

Rusiya hökuməti diplomatlarını ölkədən çıxaran dövlətlərə qarşı adekvat tədbirlər görəcək.



Bunu keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. O bildirib ki, yaxın vaxtlarda rəsmi Moskva addımlar atacaq: "Bu əks tədbirlər yox, adekvat tədbirlər olacaq. Sürprizi qabaqcadan açıqlamaq olmaz. Yaxın vaxtlarda hamı Rusiyanın addımını görəcək"

Qeyd edək ki, Rusiya Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin sabiq zabiti Sergey Skripalın Solsberidə zəhərlənməsindən sonra Britaniya Rusiyanın 23 diplomatını ölkədən çıxarıb. Martın 25-də isə Britaniya ııə həmrəylik nümayiş etdirən ABŞ, Avropa Birliyi ölkələri və bəzi digər dövlətlər ümumilikdə 140-dan çox Rusiya diplomatını "arzuolunmaz şəxs" elan ediblər.

## ƏBDÜLFƏTTAH ƏS-SİSİ YENİDƏN MİSİR PREZİDENTİ SEÇİLİB



Əbdülfəttah əs-Sisi yenidən Misir prezidenti seçilib.

Bu barədə "Əl-Əhram" və "Əhbər Əl-Sən" dövlət qəzetləri ilə rəsmi MENA xəbər agentliyi məlumat verib.

İlkin nəticələrə əsasən, əs-Sisi Misirdə keçirilən seçkilərdə 21,5 milyon səs (92 faiz) yığıb.

## Gürcüstan da geri qalmadı - Rusiya diplomatını ölkədən çıxardı

Gürcüstan bir Rusiya diplomatını ölkə ərazisindən çıxarıb.



Trend-in məlumatına görə, bu addım Böyük Britaniyaya və digər Avropa ölkələrinə həmrəylik olaraq atılıb.

Ölkədən çıxarılan diplomatın kimliyi barədə məlumat verilməyib.

# UNUTMADIQ... UNUTMARIQ!

Vətən tariximizdə erməni millətçilərinin soydaşlarımızın başına gətirdikləri müsibətlər, insanlığa sığmayan vəhşiliklər onun taleyində qisasçılıq deyil, qan yaddaşının tərbiyəsinə xidmət edir. Qanlı-qadalı illərin qan damlayan hər günündən öyrənmək, yaddaşımıza həkk etmək, ən önəmlisi, nəticə çıxarmaq mənəvi borcumuzdur. 1918-ci ilin mart ayının 30-dan aprelin 1-dək Vətənimizin müxtəlif regionlarında ermənilər tərəfindən törədilmiş soyqırımı tariximizin ən dəhşətli səhifələrindəndir...

...Erməni-bolşevik silahlı dəstələrinin üç gün fasiləsiz olaraq törətdikləri cinayətlərin sırası çox acıdır: on minlərlə insan qətlə yetirilmiş, şikəst edilmiş, alçaldılmış, bir çox dini-mədəni abidələrimiz dağıdılmış, yüzlərlə kənd yandırılmış, milyonlarla manatlıq əmlak talan olunmuşdu. Müstəqil alman tədqiqatçısı Kulqe həmin dövrün mənzərəsini xatirələrində belə təsvir etmişdir: "Ermənilər müsəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub, sakinlər qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər".

Mümkün qədər daha çox amansızlıq törədərək müsəlman əhalinin gözünü qorxutmağa çalışan qaniçən Stepan Şaumyan mart hadisələrinin bolşeviklərin daşnaklarla birlikdə həyata keçirdikləri milli qırğın olduğunu həmin ilin aprel ayının 13-də Xalq Komissarları Sovetinə yazdığı məktubunda da açıq-aşkar etiraf edirdi: "Biz süvari dəstəmizə birinci silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik... Bizim altı min nəfərə yaxın silahlı qüvvələrimiz var idi... "Daşnaksütyun"un üç-dörd min nəfərlik milli hissələri vardı ki, onlar da bizim ixtiyarımızda idi. Milli hissələrin inkişafı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verdik".

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bu müsibət də unutdurulmağa çalışıldı. Hətta süni xalqlar dostluğu mühiti yaratmağa cəhd edildi. Lakin xalq qan yaddaşına hopmuş bu müsibəti unutmadı və əsrlər keçsə də unutmayacaq.

Mart qırğınlarına ilk hüquqi-siyasi qiymət Ulu Öndər Heydər Əliyevin 1998-ci il mart ayının 26-da imzaladığı «Azərbaycanlıların soyqırımı haqqında» Fərmanda verilmişdir. Həmin rəsmi sənəddə erməni məkri faktlarla ifşa edilir, onların ölkəmizə qarşı təcavüzünün köklərinə toxunulur, mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, xalqımızın qarşılaşdığı müsibətlərin tarixinə, siyasi istiqamətlərinə nəzər salınır.

Mart soyqırımı bitməyib, o, bu gün başqa dəhşətlərdə davam etməkdədir. Bu onu göstərir ki, müasir erməni ictimai fikrində məkr və təcavüz əski kökündən qurtula bilməyib. Atəşkəs elan olunsa da, cəbhə bölgələrindən erməni silahlılarının terrorçuluq fəaliyyəti davam edir, siyasi danışıqlarda irticaçı mövqe dəstəklənir.

Son illər təcavüzkarlıq və "miatsum" ideyası üzərində qurulan erməni siyasətinin ifşası istiqamətində dövlətimizin gördüyü işlər bəhrəsini verməkdədir. İndi dünyaya yalançı erməni soyqırımı nağıllarını qəbul etdirmək istəyənlər üzə çıxarılan tarixi faktlar qarşısında aciz durumdadırlar. Dünyanın bir çox ölkələrinin arxivlərində ermənilərin azərbaycanlılara, ümumiyyətlə, türklərə qarşı törətdikləri dəhşətli soyqırımları haqda kifayət qədər fakt və sənədlər vardır. O sənədlər ki, ermənilər onların müzakirə olunub dünya ictimaiyyətinə açıqlanmasını istəmirlər. Niyə? Çünki yalan ayaq tutar, amma yeriməz. Bu məşhur Azərbaycan məsəlini ermənilər də bilməmiş deyillər. Və onu da bilməmiş deyillər ki, tökdükləri nahaq azərbaycanlı qanları yerdə qalmayacaq.

***"Cəmiyyət və Din"***

# QANLI BAHARIN 100-CÜ İLİ

Gərgin geosiyasi mühitinə və inkişaf xüsusiyyətlərinə görə XX əsr əvvəlki əsrlərdən çox fərqlənir. İki dünya müharibəsinin bu əsrdə baş verməsi, informasiya yükünün və enerji tələbatının sürətlə artması bunu söyləməyə əsas verir.

XX əsrdə demək olar ki, dünyanın bütün regionlarında eyni ssenarili siyasi və ictimai proseslər gedirdi. Cənubi Qafqaz və ona yaxın regionlar da dinamik siyasi çəkişmələri və silahlı toqquşmaları ilə seçilirdi. XX əsrin əvvəllərində I Dünya müharibəsinin baş verməsi, çar Rusiyasının və Osmanlı dövlətinin tənəzzülü, türklərin istiqlaliyyət müharibəsi aparması dünyanın siyasi düzəninin bir neçə istiqamətdə dəyişməsinə səbəb oldu. Nəticədə Qafqaz xalqları qarşısında milli idealları reallaşdırmaq üçün geniş imkanlar yarandı. Ermənilər illərlə üzərində çalışdıqları "böyük Ermənistan" xülyalarını Qərb dövlətləri və Rusiyanın maraq dairəsinə salmağı bacardılar. Növbəti addım bu planların necə həyata keçirilməsi idi. Sayca azlıq təşkil edən bu qüvvələrin ərazi iddialarının təməlində sivil münasibətlər deyil, terror əməlləri dayandı. XIX əsrin sonlarında "Armenekan", "Qnçak", "Daşnaksütyun" kimi partiyalarını yaratmaqla ermənilər Osmanlı imperiyası və Zaqafqaziya ərazisində siyasi-silahlı fəaliyyətə başladılar. Qısa zaman kəsiyində Rusiya və İranda, sonra Avropada, ardınca isə Osmanlı İmperiyasında komitələr quran bu partiyalar kütləvi terror hadisələri törətdilər. 1917-ci ildə erməni millətçiləri Türkiyənin yeddi vilayətində "böyük Ermənistan"ı yaratmaq arzusundan əl çəkməsələr də, mövcud vəziyyətdə bu planların həyata keçməsinin imkansız olduğunu anladılar. 1917-ci il oktyabr inqilabı ermənilərin haqsız mübarizələrini Azərbaycan torpaqlarında aparmalarına imkanlar yaratdı. Üstəlik, Türkmənçay müqaviləsi ilə ermənilərin regionda saylarının süni şəkildə artması onların dövlət qurmaq iddialarının həyata keçirilməsinə böyük avantaj yaratdı.

Ermənilər qan tökmək yolu ilə məqsədlərinə çatmaq ideyalarını həyata keçirməyə başladılar. "Daşnaksütyun"un silahlı dəstələri və cəbhədən qaçmış minlərlə erməni əsgərləri dinc əhalinin torpaqlarına basqınlar edərək, qısa müddət ərzində onların bir hissəsini qətlə yetirdi, qalanını isə doğma torpaqlardan didərgin saldılar. Partiyanın aparıcı şəxslərindən olan Stepan Şaumyanın o dövrdə Bakı komissarı olması terror hadisələrinin Bakıda keçirilməsini asanlaşdırdı. 1918-ci il martın 30-da Bakı soveti daşnaklara və ermənilərin Milli Şurasına azərbaycanlılara qarşı hərbi əməliyyatlara başlamaq haqqında göstəriş verdi. Axşam vaxtı başlanan qırğın 3 aprel tarixinədək Bakı şəhərində və Bakı quberniyasının müxtəlif ərazilərində, eləcə də Şamaxı, Quba,




Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər yerlərdə davam etdi. Qətliamın ilk saatlarında Bakının bir neçə məhəlləsində əhali qırğınlara məruz qaldı. Müxtəlif mənbələrə əsasən, 1918-ci il mart qırğınında Bakıda 12.000-dən 50.000-dək, Şamaxıda 10.000-dən çox insan qətlə yetirildi. 1918-ci ilin yazında ermənilər Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv edərək 3257 kişi, 2276 qadın və 2196 uşağı öldürdülər.

Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50.000 azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilərək kəndləri tamamilə dağıdılmışdır. 1918-1920-ci illər ərzində Qarabağın dağlıq hissəsinin 150 kəndinin əhalisi, Gəncə mahalında isə 12.000 nəfər qətlə yetirilmişdir. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılaraq, əhalisi öldürülmüşdür. 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək qətlə yetirilmişdir.

1905-1907-ci illərdə və 1918-1920 Azərbaycanda qırılan və yurdlarından didərgin düşən insanların sayı 2 milyondan çoxdu. Yaşından və cinsindən asılı olmayaraq insanların xüsusi işgəncələr verilərək öldürülməsi erməni-bolşevik qüvvələrinin şəhərin azərbaycanlı əhalisini kütləvi surətdə qırmaq niyyətini bir daha ortaya qoydu.

Bu qırğınlarda əhali ilə yanaşı, Azərbaycanın memarlıq abidələrinə, mədəniyyət incilərinə də divan tutuldu. Həmin hadisələr və onun təfərrüatları haqqında günümüzdə də geniş məqalələr yazılır, araşdırmalar aparılır.

XX əsrin əvvəllərində və sonlarında qarışıqlıqdan istifadə edərək belə müsibətlərin törədilməsi təsadüfi deyil. 1918-ci il mart soyqırımından sonra azərbaycanlılar ermənilərlə 70 il Sovet İttifaqı tərkibində birgə yaşasalar da, 1992-ci ilin fevral ayının 26-da Xocalıda azərbaycanlılara qarşı terror törədildi. Bəzi siyasətçilər bu soyqırımlarının törədilməsində Qafqazda bölücülük siyasəti aparan xarici qüvvələri günahlandırsalar da, bir xalqa qarşı belə aqressiv münasibətin kökündə təkcə siyasi maraqlar yox, mənəvi yoxsulluq və aclıq dayanır.

Bu gün Mart soyqırımından 100 il ötür. Əfsuslar olsun ki, bəşəriyyət ədalət uğrunda deyil, enerji qaynaqları, maliyyə resursları üstündə mübarizə aparır. XX və XXI əsrin əvvəlləri onu göstərir ki, insan həyatının əhəmiyyəti yox dərəcəsinə enib. Hər bir vətəndaşımız bu cinayətlərə hüquqi qiymət verilməsinə, ötən bir əsrdə nələr yaşadığımızı dünya ictimaiyyətinə çatdırılmasına çalışmalıdır. Qeyd etmək lazımdır ki, bu müsibətlərdə təkcə müsəlmanlar deyil, digər dinlərin nümayəndələri də həlak olublar. Belə olduğu halda, bu problemi hər bir xalq yaşaya bilər.

**Tural VƏLİZADƏ,**
*Dini maarifləndirmə işinin təşkili şöbəsinin aparıcı məsləhətçisi*

# MASALLI BÖLGƏSİNDƏ DİNİ DURUM (QISA BAXIŞ)

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Masallı bölgəsi üzrə şöbəsi Masallı, Cəlilabad və Yardımlı rayonlarını əhatə edir. Bölgədə 312 məscid, 66 ziyarətgah fəaliyyət göstərir. Hazırda Masallı rayonundan 70, Yardımlı rayonundan 11 və Cəlilabad rayonundan 5 olmaqla, ümumilikdə 86 dini icma qeydiyyatdan keçmişdir. Əksəriyyəti fəal olan həmin icmalar öz fəaliyyətləri ilə bölgəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafına xidmət edirlər.

Bölgədə hazırkı dini sabitliyə nail olunması uzun müddət aparılan maarifçilik işlərinin nəticəsidir. Dövlət Komitəsi rəhbərliyinin bölgəyə səfər edərək yerli dindarlar, ziyalılar, ağsaqqallar və cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlarla görüşməsi də respublikamızda dövlət-din münasibətlərinin tənzimlənməsi, ölkədəki və bölgədəki dini durumun hərtərəfli təhlil edilməsi baxımından işimizi daha yaxşı qurmağa öz təsirini göstərmişdir. Bütün bunlarla yanaşı, şöbənin yerli struktur və ictimai təşkilatlarla birgə keçirdiyi maarifləndirici tədbirlər, seminar-treninqlər, konfranslar bölgədə kifayət qədər nəzərəçarpacaq izlər qoymuşdur. Dini maarifləndirmə məqsədilə keçirilən tədbirlərdə bölgə dindarlarına, gənclər və ictimaiyyət nümayəndələrinə qeyri-ənənəvi cərəyanlar, dini radikalizm, tolerantlıq, ənənəvi İslam, dinlərarası və məzhəblərarası dostluq, dövlət-din münasibətləri və digər mövzular barədə ətraflı məlumat verilmiş, bu cür məsələlərdə onların lazımi biliklərə yiyələnmələrinə imkan yaradılmışdır.

Bölgədə təxminən 460-a yaxın din xadimi fəaliyyət göstərir. Dini ayinləri icra edən şəxslərin 50-dən çoxu Bakı İslam Universitetini, 120-dən çoxu isə ölkəmizdəki müxtəlif mədrəsələri bitirmişdir. Bölgənin nüfuzlu din xadimlərinin istər dini maarifləndirmə, istərsə də dövlət maraqlarına xidmət edən başqa istiqamətlərdə gündəlik fəaliyyətləri nəticəsində dini ayin və mərasimlərin keçirilməsi zamanı xurafata, mövhumata yol verilməsi halları aradan qaldırılmışdır. Ölkədə İlahiyyat İnstitutunun və bir sıra dini kolleclərin yaradılması isə gələcəkdə bölgəmizdə savadlı din xadimlərinin sayının artmasına öz töhfəsini verəcəkdir.

Sirr deyil ki, dünyada baş verən qarışıqlıqlar fonunda bəzi radikal dini təriqətlərin nümayəndələri Azərbaycana, eyni zamanda bölgəyə də ayaq açmışlar. Ancaq görülən məqsədyönlü, maarifləndirici tədbirlər nəticəsində bölgədə radikal təriqətlərin daşıyıcılarına tək-tək rast gəlinir və onlar burada əsaslı baza yarada bilməmişlər. Aparılan profilaktik və maarifləndirmə işləri nəticəsində son illər xaricdə təhsil almağa gedənlərin sayında kəskin azalma hiss olunur.

Dini təhsil ocaqları, xeyriyyə cəmiyyətləri adı altında missionerliklə məşğul olan, dini ayin və mərasimlərdə iştirak məqsədilə xaricdən gələn emissarların bölgəyə "səfər"ləri müşahidə olunmur. Artıq bölgədə hansısa xarici ölkə dindarının geyimində gəzən, dini mərasimlərdə minbərlərdə oturub, öz ölkəsinin maraqlarına uyğun moizə edən şəxslərə rast gəlmək mümkün deyil.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamına əsasən ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara 2,5 milyon vəsaitin ayrılması şöbəmizdə də bu sahədə yeni mərhələ açmışdır. Belə ki, Dövlət Komitəsi tərəfindən bölgəmizdəki 24 icmaya müxtəlif layihələrin həyata keçirilməsi məqsədilə vəsait ayrılmışdır. Həmin icmalar bölgənin əsas spesifik xüsusiyyətlərini nəzərə almaqla dini radikalizm, erkən nikahlar, gənclərin radikal təsirlərdən qorunması, həmçinin zərərli vərdişlərlə mübarizə mövzularına həsr edilmiş layihələri uğurla həyata keçirmişlər. Ümumilikdə mütəxəssislərin, dini ekspertlərin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarının da iştirakı ilə 144 maarifləndirmə tədbiri təşkil olunmuşdur. Bu tədbirlərin bir hissəsi dini icmalarda, bir hissəsi geniş ictimaiyyət qarşısında, bir hissəsi isə təhsil müəssisələrində keçirilmişdir. Tədbirlər zamanı mütəxəssislərin məruzələri dinlənilmiş, eyni zamanda iştirakçılara həmin dini icmalar tərəfindən nəşr edilmiş kitab və digər çap məhsulları paylanılmışdır. Bu cür maarifləndirmə tədbirləri bölgədəki dövlət-din münasibətlərinin müsbət inkişafına xidmət etməklə əhali, xüsusən də gənclər arasında böyük marağa səbəb olmuşdur.

Bir faktı qeyd edək ki, son bir ildə Dövlət Komitəsi rəhbərliyinin bilavasitə iştirakı ilə 6, müxtəlif qurumlarla - icra hakimiyyətləri, mədəniyyət və turizm idarələri, ümumtəhsil məktəbləri, QHT-lər, hərbi hissələr, hüquq mühafizə orqanları, gənclər və idman idarələri və s. ilə birgə 40, layihələr çərçivəsində 86 olmaqla 132 tədbir keçirilmişdir.

Azərbaycanın digər bölgələrində olduğu kimi Masallı bölgəsində də müxtəlif dinlərin, xalqların nümayəndələri daim sülh, dostluq, qardaşlıq şəraitində yaşamış və bir-birilərinin xeyir-şər işlərini, milli-dini bayramlarını birgə keçirmişlər. Hazırda bölgədə müsəlmanlarla yanaşı az da olsa, digər dinlərin nümayəndələri yaşayır. XIX əsrdə Cəlilabad rayonunun Göytəpə şəhəri, Uzundərə, Ocaqlı, Günəşli, Privolnoye, Masallı rayonunun Kalinovka kəndlərində Xristianlığın molokan və subbotnik qollarının ardıcılları məskunlaşmışlar. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra onların əksəriyyəti öz tarixi yurdlarına qayıtsalar da, bir qismi vətənləri saydıqları Azərbaycanda yaşayırlar. Onların Göytəpə şəhərindəki və Cəlilabad rayonunun Günəşli kəndindəki kilsələri bu gün də qorunub saxlanılır. Bu da ölkəmizin yüksək multikultural və tolerantlıq ənənələrindən xəbər verir.

Bölgədə tarixi dini abidələrə həmişə xüsusi qayğı göstərilmişdir. Bölgədə insanların inanc yerinə çevrilmiş 67 ziyarətgah vardır. Bunlardan 27-si Masallıda, 36-sı Yardımlıda, 4-ü isə Cəlilabad rayonunda yerləşir. Yerli əhali ziyarətgahları milli-mənəvi dəyərlər toplusu olaraq göz bəbəyi kimi qoruyur.

İstər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Qafqaz Müsəlmanları İdarəsinin idarəsinin dini mərasimlərin və ehsan süfrələrinin sadələşdirilməsi ilə bağlı verdiyi tövsiyələr bölgə əhalisi tərəfindən rəğbətlə qarşılanmışdır. Belə ki, qısa müddət ərzində bölgədə keçirilən yas mərasimlərinin xeyli sadələşdirildiyi müşahidə edilmiş, eyni zamanda yas mərasimlərinin müddəti üç günə endirilmişdir. Həmçinin ehsan mərasimlərində israfçılığın qarşısının alınması ilə bağlı müəyyən işlər görülmüşdür. Bu işdə ziyalılar, ağsaqqallar və bəzi din xadimlərinin fəallığı hiss olunur.

Şöbə əməkdaşlarının müvafiq dövlət qurumları, eyni zamanda Qafqaz Müsəlmanları İdarəsinin bölgə nümayəndələri ilə birgə gördüyü işlərdən ən önəmlisi hər il Məhərrəmliklə əlaqədar təşkil olunan mərasimlər öncəsi keçirilən geniş tərkibli, qabaqlayıcı, istiqamətverici və maarifləndirici tədbirlərdir. Bu kimi tədbirlər Məhərrəmlik mərasimlərinin qanun çərçivəsində, milli-mənəvi dəyərlərimizə hörmətlə təşkili üçün müvafiq şəraitin yaradılması məqsədi daşıyır. Görülmüş tədbirlərin nəticəsi olaraq, builki Məhərrəmlik mərasimləri bölgədə sakit və sabit keçmiş, bütün tədbirlər yalnız məscidlərdə və ya onların həyətində tikilmiş mərasim zallarında təşkil olunmuşdur.

Bu gün dindarlar ibadətləri üçün hər cür şəraiti yaradan dövlətimizə güvənir və onun rəhbərliyinin ictimai-siyasi fəaliyyətinə dəstək verirlər. Halbuki müstəqilliyimizin ilk illərində başqa sahələrdə olduğu kimi, dini sahədə də ölkəmizdə, o cümlədən cənub bölgəsində qeyri-müəyyənlik, xaos hökm sürürdü. Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkə dindarları dövlətimizin dinə və dindarlara olan qayğısını hiss etdilər. Məhz Ümummilli Liderin apardığı uzaqgörən və məqsədyönlü siyasət nəticəsində ölkəmizdə dini, milli sabitlik bərqərar oldu və bu gün bu siyasət onun layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Miryəhya BƏDİROV,**
*DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri*

# MÜQƏDDƏS ZAMAN DİLİMİ - ÜÇ AYLAR

Zaman var ki, səmaya yüksələn dualarla dəyər qazanır; zaman var ki, yağan ilahi mərhəmətlə nurlanır; zaman var ki, mərhəmət qapılarının taybatay açılmasına zəmin hazırlayır, zaman var ki, müqəddəsdir, onun hüdudlarında din daha içdən yaşanır, Allah daha dərindən hiss edilir...

Bu il mart ayının 19-na təsadüf edən Rəcəb ayının girməsi ilə bu "müqəddəs zaman dilimi"nə qədəm qoyduq. Bununla da Ramazan ayının yaxınlaşdığını müjdələyən "Üç aylar"a (Rəcəb, Şaban, Ramazan) qovuşmuş olduq. İslam dünyasında əsrlərdir "Üç aylar" ənənəsi var və bu, möminlərin mübarək Ramazana hazırlıq mərhələsidir.

Bu aylar ilahi rəhmətin daha çox ortaya çıxdığı, insanların xeyir əməllərə can atdığı aylardır; insanların mənəvi yüksəkliyə çatması, tövbə etməsi, günahlardan təmizlənməsi üçün fürsətdir.

Rəcəb ayının ilk Cümə gecəsi isə İslam aləmində müqəddəs sayılan Rəqaib qəndili xüsusi təmtəraqla qeyd edilir. Rəqaib sözünün mənası "çox bəxşiş, bol ehsan, bərəkətli bir an" deməkdir. Bu gecə möminlərə mənəvi qazanc əldə etmələri üçün bəxş olunmuş fürsətdir. Bu fürsəti dəyərləndirmək istəyən mömin gündüz oruc tutmalı, gecəni ibadətlə keçirməli, qəza, yaxud nafilə namaz qılmalı, Qurani-Kərim oxumalı, çoxlu dualar, zikrlər etməli, Allahdan gələcək günlərinin xeyirli olmasını diləməli, tövbə etməlidir.

Həzrət Peyğəmbərdən (s) rəvayət olunan hədisdə deyilir: "Rəcəb ayında Allaha çox istiğfar edin, çünki Allah-Təalanın Rəcəb ayının hər vaxtında Cəhənnəmdən azad etdiyi qulları vardır..." (Deyləmi)



# Qısa-Qısa

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən konfrans, seminar-müşavirə və seminar-treninqlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər*



*Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən tədbirlər:*

**1 mart** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində; DQİDK və Dövlət Sərhəd Xidmətinin (DSX) birgə təşkilatçılığı ilə DSX-nın Lənkəran rayonundakı "N" saylı hərbi hissəsində "Qeyri-ənənəvi dini cərəyanlar, onların fəaliyyət istiqamətləri və metodları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Xaçmaz rayonu Yalama kəndində "Vətən sevgisi imandandır" mövzusunda;

**2 mart** – DQİDK-nın DSX ilə birgə Tədbirlər Planına uyğun olaraq Göytəpə Sərhəd dəstələrinin qarnizonunda "Vətənpərvərlik nümunəsi: qazilik və şəhidlik" mövzusunda;

**6 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Quba Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Digah kəndində "Vətəni sevmək imandandır" mövzusunda; Zaqatala RİH və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala Humanitar Fənlər Gimnaziyasında "Gənclər dini radikalizmə qarşıdır" mövzusunda;

**7 mart** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin



təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti və mənəvi dəyərlərimiz" mövzusunda;

**13 mart** – Sumqayıt şəhəri 28 saylı tam orta məktəbində "Vətənpərvərlik və dini dəyərlərimiz" mövzusunda; Kürdəmir RİH və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə M.Ə.Rəsulzadə adına şəhər 2 saylı tam orta məktəb-liseydə "Sağlam həyat, yüksək mənəviyyat naminə narkomaniyaya "Yox" deyək" mövzusunda; Zaqatala RİH və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Lahıc kənd tam orta məktəbində "Cəmiyyətimizdə dini radikalizmə yer yoxdur" mövzusunda; Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Abşeron Rayon Telefon Kommunikasiya Qovşağında "Dini radikalizm və onun milli-mənəvi dəyərlərimizə mənfi təsirləri" mövzusunda;

**15 mart** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Zərifə Əliyeva adına texniki təmayüllü məktəb-liseydə "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda; Başir Səfəroğlu adına Quba şəhər Mədəniyyət Mərkəzində "Azərbaycanlıların soyqırımı: müsəlmanlar və yəhudilər erməni vandalizminin qurbanı kimi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala şəhər 2 nömrəli tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizədə din amili" mövzusunda;

**17 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Dövlət Təhlükəsizliyi Xidmətinin Saatlı və Sabirabad rayonları üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Terrorizm, dini radikalizm və ekstremizmə qarşı mübarizə" mövzusunda;

**27 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Yolayrıc kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərə sadiq Azərbaycan gəncliyi" mövzusunda;

**28 mart** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Astara rayonu Pensər kənd "Hacı Teymur Cümə" məscidində 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər müxtəlif dini cərəyanların yaranma tarixindən, zərərli dini qrupların təbliğat metodlarından bəhs ediblər. Qeyd olunub ki, gənclərin belə radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda vurğulanıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini təriqətlərə maraq azalıb.

Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasında 2018-ci



ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı AXC-nin tarixindən də söhbət açılan tədbirlərdə qeyd edilib ki, AXC milli ənənələrimizin qorunması, eləcə də əhalinin dini ehtiyaclarının ödənilməsi sahəsində əhəmiyyətli addımlar atıb, iki ildən az yaşamasına baxmayaraq, o, Azərbaycan dövlət quruluşunun bərpa olunması, onun istiqlaliyyətinin dirçəldilməsi, xalqımızın milli mənlik şüurunun oyanması baxımından mühüm işlər görüb.

Tədbirlərdə həmçinin DQİDK-nın sifarişi ilə hazırlanmış "Şəhadət" sənədli filmi nümayiş etdirilib və film ətrafında müzakirələr aparılıb, eyni zamanda iştirakçıları maraqlandıran digər suallar cavablandırılıb.

# BÖLGƏLƏRDƏ "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ NÜMAYİŞ OLUNUB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində radikal dini təmayüllərin zərərli ideyalarına qarşı mübarizə məqsədilə kütləvi nəşrlər, o cümlədən maarifləndirici kitab, jurnal, broşürlər çap edilir, sənədli filmlər hazırlanır. Bunlardan biri də Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmidir. Filmdə Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizm və*



*radikalizmin təsirinə məruz qalan, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs olunur. DQİDK əməkdaşlıq etdiyi qurumlarla birgə ölkə ərazisində "Şəhadət" sənədli filminin nümayişini həyata keçirir. Mart ayı ərzində filmin nümayişi:*

**1 mart** – Neftçala rayonu Əlif Piriyev adına 2 saylı orta məktəbdə; Tərtər Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Tərtər şəhər 2 saylı məktəb-liseydə;

**2 mart** – Füzuli Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Füzuli rayonunun Fin qəsəbəsi 59 saylı tam orta məktəbində;

**12 mart** – Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissədə;

**13 mart** – Balakən rayonu Nizami adına şəhər 1 saylı tam orta məktəbində;

**16 mart** – Hacıqabul rayonu 5 saylı orta məktəbdə; Biləsuvar Rayon İcra Hakimiyyəti və DQİDK-nın birgə təşkilatçılığı ilə Biləsuvar Peşə Liseyində baş tutub.

Rayon və şəhər icra hakimiyyətlərinin, DQİDK-nın əməkdaşlarının, məktəb direktorları, müəllim və şagirdlərin, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirlərdə "Şəhadət" sənədli filminin əhəmiyyətinə toxunan çıxışçılar bildiriblər ki, gənclərimizin milli-mənəvi dəyərlərə bağlılıq və vətənpərvərlik ruhunda formalaşmasında bu cür sənədli filmlərin böyük təsiri var.

Qeyd olunub ki, Qarabağ uğrunda gedən döyüşlərdə döyüşmüş və şəhid olmuş əsgərlərimiz dövlət və xalqımız tərəfindən hörmət və ehtiramla yad edilir, xarici dövlətlərdə fəaliyyət göstərən qeyri-qanuni hərbi birləşmələrdə və terror təşkilatlarında iştirak edən şəxslərin valideynləri isə övladlarının əməllərinə görə təəssüf və xəcalət hissi keçirir. Məktəblilər dini radikalizm haqqında məlumatlandırılaraq, gənclərin təhsilə önəm verərək



zərərli, yad dini vərdişlərdən uzaq olmalarının vacibliyi vurğulanıb.

Tədbirlərin yekununda iştirakçıların sualları cavablandırılıb və film ətrafında müzakirələr aparılıb.

# ŞƏRQDƏ DOĞAN GÜNƏŞ: AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

100 il əvvəl mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi (AXC) xalqımızın tarixində mühüm bir hadisə idi. Çünki əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə sahib olmuşdu. Bu, bütövlükdə İslam dünyası üçün də əhəmiyyətli hadisə sayılırdı. Çünki müsəlman Şərqində ilk dəfə müstəqil demokratik respublika yaranmışdı.

Müsəlman Şərqində ilk parlamentli respublika olan AXC xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, öz dövrünə xas dövlət təsisatlarının formalaşdırılmasına nail oldu. Bu baxımdan Ulu Öndər Heydər Əliyev AXC-nin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandırmış və onun əhəmiyyətini belə vurğulamışdır: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi".

Ulu Öndərin siyasi kursunun, zəngin dövlətçilik məktəbinin layiqli davamçısı Prezident İlham Əliyev isə AXC-nin yaranmasını xalqın milli oyanışının məntiqi yekunu kimi dəyərləndirmişdir. Cənab Prezidentin 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı bir daha təsdiqlədi ki, müasir müstəqil Azərbaycan Respublikası AXC-nin varisidir. Ölkə rəhbərinin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi isə Prezidentin dövlətçilik ənənəsinə verdiyi dəyərin təzahürüdür.

Dövlət başçımızın Cümhuriyyətin 100 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi barədə sərəncamıhər bir soydaşımız tərəfindən rəğbətlə qarşılandı. Çünki bu gün hər bir ziyalı, ictimai-siyasi xadim, bütövlükdə ictimaiyyətin nümayəndələri çox yaxşı bilir ki, xalqımızın və milli dövlətçiliyimizin tarixində özünəməxsus yer tutan AXC mürəkkəb bir dövrdə meydana gəlmiş və çox çətin şəraitdə fəaliyyət göstərmişdir. Belə ki, XIX əsrin sonlarından başlayaraq erməni millətçi təşkilatları Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnməyə çalışırdılar. AXC-nin elanından sonra Azərbaycanın daxilində, o cümlədən beynəlxalq aləmdə yaranmış mürəkkəb və ziddiyyətli durumdan istifadə edən erməni millətçiləri özlərinin "Böyük Ermənistan" xülyasını həyata keçirmək üçün yenidən geniş fəaliyyətə başladılar. Bu istiqamətdə onların ilk hədəfi Zəngəzur və Qarabağı ələ keçirmək idi.

Azərbaycan üçün çətin və mürəkkəb olan 1918-ci ildə yalnız Türkiyə ilk gündən respublikamızın ərazi bütövlüyünün və suverenliyinin qorunması üçün hərtərəfli siyasi və hərbi yardım göstərmişdir. Bu yardım erməni millətçilərinin və onların havadarları olan bolşeviklərin Azərbaycanın tarixi taleyi üçün təhlükəli cəhdlərinin həyata keçirilməsinə mane olmuşdur.

Qafqaza XIX əsrdə kütləvi şəkildə köçürülərək məskunlaşdırılmış ermənilər XX əsrin əvvəllərindən etibarən bütün azərbaycanlıları öz tarixi torpaqlarından planlı surətdə qovmağa və onlara qarşı milli soyqırımı törətməyə başladılar. AXC-nin yaranmasından sonra İrəvanın təbliği, təhriki və təzyiqi ilə Qarabağın dağlıq hissəsindəki erməni əhalisinin müəyyən qismi Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdi. Dağlıq Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda Şuşada keçirilən I qurultayı Yuxarı (Dağlıq) Qarabağı müstəqil elan etdi və Ermənistan hökuməti işğalçılıq planlarını həyata keçirmək üçün oraya silahlı qüvvələr yeritdi. Bunun qarşılığında Azərbaycan hökuməti Qarabağın müdafiəsini gücləndirmək məqsədilə oraya hərbi qüvvələr göndərməli oldu. Xosrov bəy Sultanovun rəhbərliyi ilə mərkəzi Şuşa şəhəri olan, Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaradıldı. Həmin qubernatorluq Yuxarı Qarabağda və Zəngəzurda erməni separatçılığının aradan qaldırılmasında mühüm rol oynamışdır. Qubernatorluğun yaradılması Qarabağ ermənilərinin AXC hökumətini tanımasında əsas amillərdən biri olmuşdur.

Yuxarı Qarabağda milli münaqişənin beynəlxalq aspektdə tənzimlənməsi AXC-nin qarşısında duran ən mühüm məsələlərdən biri olmaqla yanaşı, 1918-1920-ci illərdə onun xarici siyasətinin başlıca məqsədi Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə təsdiqlənməsindən ibarət idi. AXC-nin xarici siyasətinin ana xəttini təşkil edən bu vəzifənin həyata keçirilməsinə ölkənin ən nüfuzlu şəxsləri cəlb olunmuş, bu sahəyə böyük əhəmiyyət verilmişdi. Bu məqsədlə 1919-cu il yanvarın 8-də Azərbaycan nümayəndə heyəti parlamentin sədri Ə.M.Topçubaşovun rəhbərliyi altında Paris Sülh Konfransına yola düşdü. May ayının 28-də ABŞ prezidenti V.Vilson tərəfindən qəbul edilən nümayəndə heyəti ona qısa siyasi memorandum təqdim etdi. Memorandumun ən əhəmiyyətli bölmələri AXC-nin ərazisi və əhalisi ilə bağlı idi. Çünki ermənilərin, gürcülərin və iranlıların konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana aid olduğu üçün onun hüdudları barədə konfransın rəhbərlərində aydın təsəvvür yaratmaq zərurəti meydana çıxmışdı.

Paris Sülh Konfransında Azərbaycan nümayəndələrinin qarşılaşdığı ciddi məsələlərdən biri də erməni nümayəndələri ilə münasibətlər idi. Bununla belə, Əlimərdan bəy Topçubaşov Konfransda görüşdüyü müxtəlif nümayəndə heyətlərinin üzvləri ilə söhbətlərində böyük dövlətlərin başçılarına və xarici işlər nazirlərinə göndərdiyi notalarda "erməni əzabkeşliyinin" iç üzünü açıb göstərə bilmişdi. Parisdəki erməni nümayəndələri isə Qarabağda özlərinin törətdiyi cinayətləri başqalarının ayağına yazır və bununla da, müttəfiq ölkələrin nümayəndələri qarşısında Azərbaycan Respublikasını və onun Versaldakı nümayəndələrini nüfuzdan salmağa çalışırdılar.

1917-ci ilin dekabrından 1919-cu ilin iyununa kimi erməni qoşunları tərəfindən İrəvan quberniyasında 200-dən çox azərbaycanlı kəndi dağıdılmış və yandırılmışdı. Tərk edilmiş Azərbaycan kəndlərinə Türkiyədən olan ermənilər yerləşdirilirdi. AXC-nin Baş naziri Fətəli xan Xoyski Ermənistan hökumətinə göndərdiyi notada azərbaycanlılara qarşı təcavüz siyasətinin dayandırılmasını qəti şəkildə tələb edirdi. Lakin münasibətləri bərpa etmək mümkün olmadı. 1918-1920-ci illərdə Qarabağda soyqırımı törədən erməni daşnakları kəndləri məhv edərək, minlərlə azərbaycanlını öz doğma yurd-yuvasından qovdu. Nuru Paşanın rəhbərliyi altındakı ordu Xosrov bəy Şultanovun başçılıq etdiyi müqavimət hərəkatı ilə birgə 1920-ci il iyun ayının əvvəllərində Şuşanı XI ordunun silahlı dəstələrindən təmizləyə bilsə də, Dağlıq Qarabağa rus və erməni quldurlarına kömək məqsədi ilə gətirilmiş birləşmiş ordu hissələri bir neçə gündən sonra Şuşada Sovet hökumətini bərpa etdi.

Ancaq 1920-ci ildə itirilmiş müstəqilliyimizin XX əsrin sonunda yenidən bərpası milli azadlıq ruhumuzun yaşadığını təsdiqlədi.

**Rahid MƏMMƏDOV,**
*Masallı şəhər Sakit Tağıyev adına 4 nömrəli Digah tam orta məktəbin direktor müavini*

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA EDİLİR

*Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2018-ci ilin mart ayı ərzində müxtəlif bölgələrdə tədbirlər keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin*



*(DQİDK) dəstəyi ilə cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*

**2 mart** – Masallı rayonu Boradigah qəsəbəsi "Həzrəti Əli" məscidi dini icmasının "Azərbaycanda İslam Həmrəyliyi: dünən və bu gün" layihəsi çərçivəsində "Zərərli vərdişlərə qarşı mübarizədə din xadimlərinin rolu" mövzusunda; Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icmasının "Azərbaycan gənci: millilik, qazilik, şəhidlik" layihəsi çərçivəsində Cocuq Mərcanlı kənd məktəbində

**13 mart** – Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icmasının "Azərbaycan gənci: millilik, qazilik, şəhidlik" layihəsi çərçivəsində;

**14 mart** – Saatlı rayonu Şirinbəy kənd məscidi dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "İslam həmrəyliyi və gənclərin radikal təsirlərdən qorunması" mövzusunda; Şirvan şəhər "Zeynalabdin" məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində baş tutub.

Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə DQİDK-nın mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri çıxış ediblər. Ölkəmizin zəngin milli-mənəvi dəyərlərindən, bu dəyərlərin qorunmasının və gənclər arasında təbliğinin əhəmiyyətindən danışan natiqlər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar. Həmçinin




çıxışçılar dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.

Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BƏDƏN DİLİ:
## *Həzrət Peyğəmbər (s) nümunəsində*

İnsanlar bir-biri ilə ünsiyyət qurmaq üçün sözlərdən, səslərdən və hərəkətlərdən istifadə edirlər. Aparılan araşdırmalardan məlum olmuşdur ki, ünsiyyət zamanı sözlər 7%, səslər 38% təsir gücünə malik olduğu halda, bədən hərəkətlərinin effekti 55%-dir. Bu, "bədən dili"nin ünsiyyət zamanı özünü ifadə etmədə necə böyük əhəmiyyət daşıdığının bariz nümunəsidir. Müasir dövrdə xüsusi elm sahəsi kimi öyrənilən "bədən dili" mədəniyyət tarixində aparıcı yerə sahibdir və ritorika, tibb, psixologiya, pedaqogika, incəsənət, xiroloqiya və xironomiya kimi bir çox elm sahəsinin əsas tədqiqat mövzusuna daxildir. Bədən dilini öyrənən xüsusi elm sahəsi isə "kinesika" adlanır.

Şübhəsiz, bir peyğəmbər, təbliğatçı kimi, Rəsulullahın (s) da insanlarla ünsiyyət qurarkən "bədən dili"ndən necə istifadə etməsi maraqlıdır. Öncə qeyd edək ki, Allah Rəsulunun (s) təbliğ və bəyan vəzifəsini yerinə yetirərkən ünsiyyət qurma bacarığının böyük rolu olmuşdur. O, on dörd əsr əvvəl İslam dininin təbliği üçün təkbaşına yola çıxmış və qısa müddətdə ətrafına xeyli insan cəlb edə bilmişdir. Bu nailiyyətin qazanılmasında onun gözəl danışıq üslubu və "bədən dili" əvəzsiz rol oynamışdır.

Mənbələrdən aydın olur ki, Həzrət Peyğəmbər (s) danışıq zamanı əl və barmaq hərəkətlərindən daha çox istifadə etməklə danışığına xüsusi canlılıq qazandırmışdır. Məsələn, Rəsulullah (s) möminlər arasındakı həmrəylikdən bəhs edərkən, "Möminlər sanki bina kimidir. Birbirinə dəstək olmaqla ayaqüstə dururlar" buyurmuş və barmaqlarını birbirinə keçirərək birləşdirmişdir. Bu hərəkəti ilə o, birlik və bərabərliyin əhəmiyyətini gözəl üslubla anlatmışdır. Təqvanın yerinin qəlb olduğunu söylədikdə isə, əli ilə sinəsinin sol tərəfini göstərməklə, mücərrəd məfhumları konkretləşdirərək, fikrini həmsöhbətinin başa düşəcəyi səviyyədə ifadə etmişdir. Abdulla ibn Amrdan nəql olunan hədis də buna gözəl nümunədir. O, Həzrət Peyğəmbərdən (s) eşitdiyi hər şeyi yazırmış. Səhabələr Peyğəmbərin (s) də insan olduğunu və qəzəblənəndə dediklərinin yazılmasını düzgün saymadıqlarını söyləyərək, öz etirazlarını bildirmişlər. Abdulla ibn Amr bunu Həzrət Peyğəmbərə (s) xəbər vermişdir. O da "Yaz! And olsun nəfsim əlində olan Allaha ki, buradan haqdan başqa bir söz çıxmaz" – deyə, əli ilə ağzını göstərmişdir.

Həzrət Peyğəmbər (s) həmsöhbətləri ilə nəzakət, şəfqət və mərhəmətlə rəftar etmişdir. O, kimisə pisləyəcək tərzdə göz-qaş hərəkəti etməmiş və başqalarının da belə davranmasına icazə verməmişdir. Məkkənin fəthindən sonra haqqında ölüm hökmü verilən Abdulla ibn Sad ibn Əbis-Sərh Həzrət Peyğəmbərin (s) yanına gələrək, ondan aman diləmiş və əlindən tutaraq beyət etmək istəmişdir. Rəsulullah (s) onun beyətini qəbul etməmiş, lakin üçüncü dəfədən sonra onu bağışlamaq məcburiyyətində qalmışdır. Beləliklə, həmin adam ölüm hökmündən azad olmuşdur. Sonra Peyğəmbər (s) əshabından "mənim hərəkətimi gördüyünüz halda niyə onu öldürmədiniz", - deyə soruşmuşdur. Onlar da gözü ilə işarə etsəydi, dərhal onu öldürəcəklərini bildirmişlər. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Biz peyğəmbərlərin gözünə xəyanət



yaraşmaz".

Allahın Elçisi yolda gedərkən ayaqlarını yerə sürtməmiş, ağır, sərt addımlarla yerimişdir. Mənbələrdə onun bardaş quraraq, ayaqlarını uzadaraq və ya dizüstü oturduğuna dair fərqli rəvayətlər vardır. Danışarkən sözləri açıq-aydın, tək-tək, hamının anlayacağı tərzdə tələffüz etmiş və buyurmuşdur: "Mən az, lakin mənalı söz söyləmək (cəvamiul-kəlm) xüsusiyyətinə sahib olaraq göndərildim".

Yeri gəldikdə o, əhəmiyyətli cümlələrini üç dəfə təkrarlamışdır.

Rəsulullah həmsöhbətinə qarşı bəzən qardaş, bəzən şəfqətli müəllim, bəzən də mərhəmətli ata kimi münasibət göstərmiş, söyləyəcəklərini bəzən yarızarafat, ümidverici, sevindirici, bəzən də kinayəli və düşündürücü tərzdə çatdırmışdır. Danışarkən həmsöhbətinin üzünə baxmış, əlini tutmuşsa, qarşısındakı üzünü başqa tərəfə çevirmədən o da həmin tərəfə çevirməmişdir. Həmişə gülərüzlü olmağı tövsiyə etmiş, öz üzündən də təbəssüm əskik olmamışdır. Düşmənlərini belə, sakitcə dinləmiş, danışma sırası ona yetişdikdə icazə alaraq, sözə başlamışdır.

Həzrət Peyğəmbər (s) öz sevgisini, səmimiyyətini də sevdiklərindən əsirgəməmişdir. Uzaqdan gələn və xətrini çox istədiyi dostlarını, qohum-əqrəbalarını qucaqlayıb bağrına basmışdır. Cəfər ibn Əbu Talib Həbəşistan hicrətindən Mədinəyə qayıtdığı zaman Xeybər təzəcə fəth olunmuşdu. On üç il ayrılıqdan sonra Cəfəri görmək Həzrət Peyğəmbərə (s) böyük sevinc bəxş etmiş, o, Cəfərin alnından öpərək, demişdir: "Hansına daha çox sevinirəm bilmirəm; Xeybərin fəthinəmi, yoxsa Cəfərin gəlişinəmi?".

Uşaqlara qarşı xüsusi nəvaziş göstərən Rəsulullah (s) onları arada dəvəsinə mindirərək, gəzdirmiş, nəsihətlər verib, saçlarını tumarlayarmış. O, daha çox uşaqlarla, xanımları, fəqir-füqəra və ətrafdakılardan sevgi gözləyən kəslərlə zarafatlaşarmış. Lakin zarafatlarında heç vaxt həddini aşmamışdır. "Səhihi-Buxari"də keçən bir hədisdə onun "Dostunla söz davası etmə, zarafatlaşma, nəyəsə söz verib, sonra sözündən qaçma" buyurduğu rəvayət olunur. Bu sözlərindən sonra əshabı "Ya Rəsulullah, siz də zarafat edirsiniz", - demişdir. Həzrət Peyğəmbər belə cavab vermişdir: "Bəli, mən də zarafatlaşıram. Ancaq mən zarafat edərkən belə, həqiqəti söyləyirəm".

Beləliklə, inancımızın, dinimizin başqaları tərəfindən düzgün anlaşılıb, sevilməsi, qəbul edilməsində müsəlman kimi sözlərimizin, davranışımızın, eləcə də "bədən dili"mizin əhəmiyyəti böyükdür. Bu baxımdan müvəffəqiyyət qazanmaq üçün Həzrət Peyğəmbərin (s) həyat tərzini nümunə götürməliyik.

**Hazırladı:**
**Güney HƏSƏNOVA,**
ilahiyyatçı

# Xristian dünyası Pasxa bayramını qeyd etməyə hazırlaşır

Xristianlığın pravoslavlıq məzhəbinin ardıcılları əsas kilsə bayramlarından birini – Pasxanı və yaxud İsa Məsihin Dirilməsini qeyd etməyə hazırlaşırlar. Bu il pravoslav təqviminə görə, Pasxa aprel ayının 8-inə təsadüf edəcək. Pravoslavlarla yanaşı, katoliklər və lüteranlar da bu bayramı keçirirlər. Lakin onlar hər il Pasxanı müxtəlif tarixlərdə qeyd edirlər, çünki bayramların tarixinin hesablanması prinsipləri fərqlidir. Nadir hallarda bütün xristianların bu bayramı eyni gündə qeyd etməsinə rast gəlinir.

Pasxa Xristianlıqda ən qədim, mühüm və sevimli bayramlardan biridir. Çünki İsa Məsihin dirilməsi xristian təliminin əsasını təşkil edir.

Ənənəyə görə, dindarlar cümə axşamı səhər kuliç bişirir, axşam pasxa hazırlayır, şənbə günü onları kilsəyə aparır, şənbə günündən bazar gününə keçən gecə isə Pasxa bayramının başlanmasını bildirən Xaç yürüşü edirlər. İsa peyğəmbərin Dirildiyi Müqəddəs Gün isə hamı pasxa süfrəsi arxasında əyləşir, bir-birini pasxa və



kuliçə qonaq edir, yumurta döyüşdürür və bir-birini "İsa Dirildi!" kəlməsi ilə salamlayır.

Pasxa bayramında süfrədə mütləq rənglənmiş yumurta olmalıdır. Bayramın rəmzi şirniyyatı sayılan kuliç isə bişiriləndən sonra kilsəyə aparılır, ona dualı su səpilir və evə gətirilir. Xristian inancına görə, kuliçi yeyən bütün şər qüvvələrdən, pis ruhlardan uzaq olur.

Çoxları Pasxaya 7 həftə davam edən Böyük Pəhriz ilə hazırlaşmağa başlayır. Bu müddət ərzində dindarlar hər növ əyləncədən, şənlikdən imtina etməlidirlər. Xristian dindarlar tez-tez ibadətlərdə iştirak etməli, Müqəddəs Kitabı oxumalı, dua, tövbə və şəfqəti unutmamalıdırlar.

Müsəlmanların Ramazan və Qurban bayramlarında olduğu kimi, xristianların da Pasxa mərasimində kimsəsizləri, imkansızları sevindirmək bayramın vacib elementlərindən sayılır. Bu gün köhnə inciklikləri unutmaq, kimsəyə qarşı kini, nifrəti qəlbdən uzaqlaşdırmaq mühüm şərtlərdəndir.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Dəyişiklik

**Masallı rayonu Böyük Xocavar kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 23 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A 4 – 484

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsmayılov Xəlil Baba oğlu, Eynullayev Camaləddin Ağəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, İbrahimov Fuad Tərlan oğlu, Abuşov Ağahəsən Abdulla oğlu, Quliyev İnqilab Nəcəfqulu oğlu, Bayramov Namiq Dövlət oğlu, İsmayılov Mürüvvət Xəlil oğlu, Əliyev İsrafil Əli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

İsmayılov Xəlil Baba oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Zeynalov Əliaşrəf Böyükağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 mart 2018-ci il

**Yardımlı rayonu Avaş kəndi "İmam Museyi Kazım" məscidi dini icması**

Qeydiyyat tarixi: 08 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 69

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Fərziyev Fikrət Əlisahib oğlu, Əliyev Fərrux Yunsur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Fərziyev Musa Fikrət oğlu, Əzimli Tural Seyyub oğlu, Əliyev Ceyhun Mərdan oğlu, Əlizadə Bəhruz Mübariz oğlu, Rzayev Təyyar Əvəz oğlu, Balaşov Musa Ayaz oğlu, Fərziyev İsa Fikrət oğlu, Rzayev Hacıbala Əlibala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Fərziyev Fikrət Əlisahib oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Fərziyev Musa Fikrət oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 mart 2018-ci il

**Yardımlı rayonu Yardımlı şəhər Əsədabad məhəllə məscidi dini icması**

Qeydiyyat tarixi: 01 iyul 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 542-23

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mirzəyev Adil Xazayir oğlu, Mustafayev Nicat Marifət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Quliyev Yadigar Xanoğlan oğlu, Miranov Ağadin Ağamirzə oğlu, Mustafayev Mustafa Təbiyət oğlu, Mustafayev Himayət Mənsimxan oğlu, Baratov Ramin Əlipənah oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Mirzəyev Adil Xazayır oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Mustafayev Marifət Mənsimxan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 mart 2018-ci il

**Yardımlı rayonu Zevin kəndi Aşağı kənd məhəlləsi "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 29 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 334

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Nəcəf Atamalı oğlu, Ağayev Bəxtiyar Novruzəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məhərrəmov Məzahir Mudaim oğlu, Balaşov Dədəkişi Elbəyi oğlu, Mehtiyev Mehti Mətləbağa oğlu, Qədirov Araz Məmmədxan oğlu, Məhərrəmov Yasər Mudaim oğlu, Məmişov Arif Əsgər oğlu, Novruzov Kamil Bəxtiyar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məmmədov Nəcəf Atamalı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məhərrəmov Məzahir Mudaim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 mart 2018-ci il

## Ləğv olunan

**"Qusar rayonu Kirik kənd" dini icması**

Qeydiyyat tarixi: 17.10.1997-ci
Qeydiyyat №-si: 185

"Qusar rayonu Kirik kənd" dini icması təsisçilərinin 22.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 15 mart 2018-ci ildə qeydə alınıb.

**"Qusar rayonu Həsənqala kənd" dini icması**

Qeydiyyat tarixi: 11.05.1999-ci
Qeydiyyat №-si: 278

"Qusar rayonu Həsənqala kənd" dini icması təsisçilərinin 22.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 15 mart 2018-ci ildə qeydə alınıb.

**"Quba rayonu Hacıhüseynli kənd" dini icması**

Qeydiyyat tarixi: 16.02.1996-cı
Qeydiyyat №-si: 107

"Quba rayonu Hacıhüseynli kənd" dini icması təsisçilərinin 16.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 15 mart 2018-ci ildə qeydə alınıb.

**"Quba rayonu Digah kənd" dini icması**

Qeydiyyat tarixi: 15.02.2000-ci
Qeydiyyat №-si: 355

"Quba rayonu Digah kənd" dini icması təsisçilərinin 16.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 15 mart 2018-ci ildə qeydə alınıb.

**"Dəvəçi rayonu Baş Əmirxanlı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 13.02.1998-ci
Qeydiyyat №-si: 216

"Dəvəçi rayonu Baş Əmirxanlı kənd məscidi" dini icması təsisçilərinin 13.02.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 15 mart 2018-ci ildə qeydə alınıb.

**"Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbəsi 1-ci məhəllə" dini icması**

Qeydiyyat tarixi: 26.10.2006-cı
Qeydiyyat №-si: 1306B1-364

"Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbəsi 1-ci məhəllə" dini icması təsisçilərinin 06.12.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 15 mart 2018-ci ildə qeydə alınıb.

## Elan

Göyçay rayonu Kürdşaban kənd dini icması (102 nömrəli, 26.04.2002-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 26 mart 2018-ci il tarixli ümumi yığıncağında 3 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

***

Göyçay rayonu Kürdşaban kənd dini icmasına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 26.04.2002-ci il tarixli çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Göyçay şəhər dindarlarının dini icması (119 nömrəli, 24.05.2002-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 mart 2018-ci il tarixli ümumi yığıncağında 4 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

***

Göyçay şəhər dindarlarının dini icmasına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 119 nömrəli, 24.05.2002-ci il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Ağdaş rayonu Xınaxlı kəndi "Veysəl Qərani" ziyarətgahı (195 nömrəli, 24.06.2003-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27.03.2018-ci il tarixli, 03 nömrəli protokolu ilə həmin dini qurumun ləğvi barədə qərar qəbul edilmişdir.

# Dövlət Komitəsi müsabiqə elan edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" imzaladığı Sərəncama əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə dair Tədbirlər Planı" təsdiq olunub. Sözügedən Tədbirlər Planında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini icmaların üzvləri arasında Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı məqalə müsabiqəsinin keçirilməsi nəzərdə tutulub.

Bu məqsədlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini icmaların üzvləri arasında "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" mövzusunda məqalə müsabiqəsi elan edir.

**1.Müsabiqənin şərtləri**

- Məqalə mövzuya uyğun olmalıdır;
- Müsabiqə elan olunduqdan sonra məqalələr qəzet, informasiya agentlikləri və ya xəbər saytlarında dərc edilməlidir;
- Məqalənin həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- Yazılar qəzetdə dərc olunarsa: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim edilməlidir;
- Elektron media resursunda yayımlanarsa: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) çap olunmalı və link əlavə edilərək Dövlət Komitəsinə təqdim olunmalıdır.

**2. Mükafat**

I yer – 500 AZN
II yer – 400 AZN
III yer – 300 AZN
Hər biri 100 manat olmaqla üç həvəsləndirici mükafat

**3. Müsabiqənin müddəti: Məqalələr 27 mart – 17 aprel 2018-ci il tarixlərində təqdim edilməlidir.**

**Ünvan:** Bakı şəhəri, Əhməd Cavad küç., 12
**Əlaqə telefonları:** (012) 492 65 23 / (012) 497 09 88
**E-mail:** redaksiya@scwra.gov.az

CƏMİYYƏT və DİN
№ 03 (320) / MART 2018-ci il

# Reyhan Camalovanın adı "Forbes" jurnalında




Dünyanın nüfuzlu nəşrlərindən olan "Forbes" jurnalındakı gənc ixtiraçıların reytinq cədvəlinə ilk dəfə azərbaycanlı yeniyetmənin - Reyhan Camalovanın adı daxil edilib.

Qeyd edək ki, "Forbes"in hesabatında ən gənc ixtiraçılardan biri kimi yer alan R.Camalova "İstək" liseyinin şagirdidir. Onun hazırladığı yağış suyundan enerji istehsal edən "Reynerci (Rainergy)" qurğusu jurnalda ən diqqətçəkən ixtiralardan biri kimi qeyd olunub.

## SOSİAL MEDİADA YALAN XƏBƏRLƏR DAHA SÜRƏTLƏ YAYILIR

"Twitter" sosial şəbəkəsi və Massaçusets Texnologiya İnstitutu xəbərlərin yayılması ilə bağlı geniş miqyaslı tədqiqat aparıblar.

Anadolu informasiya agentliyinin verdiyi xəbərə görə, tədqiqat çərçivəsində 2006-2017-ci illərdə "Twitter" sosial şəbəkəsində yer alan yüz minlərlə xəbər araşdırılıb.

"Journal of Science" jurnalında dərc olunan araşdırmanın nəticələri həmin müddət ərzində 126 min yalan informasiyanın təxminən 3 milyon nəfər tərəfindən yayıldığını və yalan informasiyanın istifadəçilər tərəfindən paylaşma ehtimalının 70 faiz yüksək olduğunu göstərib.

Bundan başqa, doğru xəbərlərin 1500 nəfərə çatma sürətinin yalan xəbərdən 6 dəfə daha ləng olduğu müəyyən edilib. Mütəxəssislər bunun səbəbini yalan xəbərlərin "daha fantastik və şokedici olması" ilə əlaqələndirirlər.

## BƏƏ-DƏ ÖTƏN İL 3 MİNDƏN ARTIQ ƏCNƏBİ İSLAMI QƏBUL EDİB

2017-ci ildə Birləşmiş Ərəb Əmirliyində yaşayan 3014 əcnəbi vətəndaş İslamı qəbul edib.

Yerli "Khaleej Times" nəşri xəbər verir ki, bu rəqəmin artması "Dar əl-Ber" cəmiyyətinin İslamın tolerant və mülayim din olduğunun təbliği ilə səciyyələndirilir.

Dubay və Ras-əl-Heymə əmirliklərindəki İslam informasiya mərkəzlərinin əməkdaşları bu dini qəbul edənləri dəstəkləyir və onun əsasları sahəsində maarifləndirir.

İslam informasiya mərkəzinin rəhbəri Rəşid Al Cunaybi bildirib ki, il ərzində ölkə vətəndaşlarının İslam dini haqqında biliklərinin artırılması üçün xüsusi proqramlar həyata keçirilib və onu yeni qəbul edən dindarlar üçün müxtəlif tədbirlər təşkil olunub.

Onun sözlərinə görə, 2785 nəfər Dubayda, 229 nəfər isə Ras-əl-Heymədə yerləşən mərkəzdə müsəlmanlığı qəbul edib. İslam dinini qəbul edən BƏƏ sakinləri 69 milliyyət və 6 qitəni təmsil edir: 17-si Asiya, 15-i Afrika, 27-si Avropa, 2-si Şimali Amerika, 7-si Cənubi Amerika və Avstraliya ölkələridir.

Qeyd olunur ki, ötən il ərzində İslam informasiya mərkəzi tərəfindən xaricilər üçün 3798 dini və mədəni mühazirələr təşkil olunub, ölkə ərazisi üzrə 20 dildə əhalinin sualları cavablandırılıb. İslam informasiya mərkəzinin əməkdaşları xarici vətəndaşların ziyarət etdiyi 150 obyektdə – muzeylərdə, ticarət mərkəzlərində, metro stansiyalarında və digər yerlərdə işləyib.

### Yadigar söz

*Məhəmməd Əmin Rəsulzadə*

**Azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Aprel - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:03 | 06:25 | 12:45 | 17:14 | 19:19 | 20:21 |
| 2 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:20 | 20:22 |
| 3 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:21 | 20:24 |
| 4 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:22 | 20:25 |
| 5 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:23 | 20:26 |
| 6 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:24 | 20:27 |
| 7 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:25 | 20:28 |
| 8 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:26 | 20:30 |
| 9 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:27 | 20:31 |
| 10 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:28 | 20:32 |
| 11 | 04:45 | 06:09 | 12:42 | 17:20 | 19:29 | 20:33 |
| 12 | 04:43 | 06:08 | 12:42 | 17:21 | 19:30 | 20:35 |
| 13 | 04:41 | 06:06 | 12:41 | 17:22 | 19:31 | 20:36 |
| 14 | 04:40 | 06:05 | 12:41 | 17:22 | 19:32 | 20:37 |
| 15 | 04:38 | 06:03 | 12:41 | 17:23 | 19:33 | 20:39 |
| 16 | 04:36 | 06:02 | 12:41 | 17:23 | 19:34 | 20:40 |
| 17 | 04:34 | 06:00 | 12:40 | 17:24 | 19:36 | 20:41 |
| 18 | 04:32 | 05:59 | 12:40 | 17:25 | 19:37 | 20:42 |
| 19 | 04:31 | 05:57 | 12:40 | 17:25 | 19:38 | 20:44 |
| 20 | 04:29 | 05:56 | 12:40 | 17:26 | 19:39 | 20:45 |
| 21 | 04:27 | 05:54 | 12:39 | 17:27 | 19:40 | 20:46 |
| 22 | 04:25 | 05:53 | 12:39 | 17:27 | 19:41 | 20:48 |
| 23 | 04:24 | 05:51 | 12:39 | 17:28 | 19:42 | 20:49 |
| 24 | 04:22 | 05:50 | 12:39 | 17:28 | 19:43 | 20:50 |
| 25 | 04:20 | 05:49 | 12:39 | 17:29 | 19:44 | 20:52 |
| 26 | 04:18 | 05:47 | 12:39 | 17:30 | 19:45 | 20:53 |
| 27 | 04:17 | 05:46 | 12:38 | 17:30 | 19:46 | 20:55 |
| 28 | 04:15 | 05:44 | 12:38 | 17:31 | 19:47 | 20:56 |
| 29 | 04:13 | 05:43 | 12:38 | 17:31 | 19:48 | 20:57 |
| 30 | 04:12 | 05:42 | 12:38 | 17:32 | 19:50 | 20:59 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## GÖZLƏ GÖRÜNMƏYƏN MODUL EV

Karli Kulson adlı dizayner faktiki olaraq gözlə görünməyən evin layihəsini təqdim edib. Bu effektə binanın xarici divarları üzərində quraşdırılmış xüsusi qurğunun hesabına nail olunub.



Novate.ru saytına istinadən, "The Disappear Retreats" adlı modul evdə enerji və su sərfi yox dərəcəsindədir. Sahəsi 7,7 kvadratmetr olan sözügedən evi istənilən yerə aparmaq mümkündür.

Modul ev yataq və vanna otağı ilə təchiz edilib. Bununla belə, evin dizaynını onun sahibinin istəyinə uyğun olaraq dəyişmək heç də çətin deyil.

## YAPONİYADA ÖLKƏ TARİXİNDƏ ƏN BÖYÜK DƏFİNƏ TAPILIB



Yaponiyanın Saytama prefekturasında böyük pul xəzinəsi aşkar olunub. Xəzinə Kumaqaya şəhər Mədəni Dəyərlər Muzeyinə təhvil verilib.

Muzeyin bu barədə yaydığı məlumatda deyilir ki, bu, Yaponiyada gil qabda ən böyük pul tapıntısıdır. Xəzinə sikkələrin sayına görə də ən çoxsaylı tapıntıdır.

Dəfinə Hasuda şəhərində orta əsrlərə (XV-XVI əsrlər) aid ərazidə qazıntılar zamanı aşkar edilib. Demək olar ki, heç bir zərər dəyməyən 70 santimetr hündürlükdə gil qabda 260 min ədəd sikkə tapılıb. Dəfinə basdırılarkən buradakı sikkələr ortalarındakı deşiklərdən keçirilən ip vasitəsilə bir-birinə bağlanıb.

Arxeoloqların rəyinə görə, dəfinə şyoqunlar arasında davam edən müharibələr dövründə vardövləti qorumaq məqsədilə basdırılıb.

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894